

# BU GÜN MİLLİ MƏCLİSƏ SEÇKİLƏR KEÇİRİLİR




RƏSMİ DÖVLƏT QƏZETİ





# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 28 (8344) BAZAR, 9 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Azərbaycan seçkilərə tam hazırdır

### 1314 namizəd, 77790 yerli və 883 beynəlxalq müşahidəçi...

Milli Məclisin seçkilərlə əlaqədar ötən ilin dekabr ayından başlanan seçki kampaniyası ən mühüm mərhələsinə qədəm qoydu. Bu gün 125 seçki dairəsi üzrə 5573 seçki məntəqəsində parlament seçkiləri ilə əlaqədar səsvermə keçirilir. Bu seçkidə ölkə üzrə seçicilərin sayı 5 milyon 329 min 460 nəfərdir. İlk dəfə səs verəcək vətəndaşların sayı 6189-dur. Seçkinin yekunlarına əsasən Azərbaycan Respublikasının altıncı çağırış Milli Məclisi formalaşacaq.

Mərkəzi Seçki Komissiyasının 2019-cu il dekabrın 9-da təsdiq etdiyi Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı vaxtında icra olunub. Seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdırılıb, bütün səsvermə məntəqələri lazımi avadanlıqlarla təchiz olunaraq tam hazır vəziyyətə gətirilib.

Budəfəki seçki marafonunda 1314 nəfər namizəd mübarizə aparır. Onlardan 246 nəfərin namizədliyi siyasi partiyalar, 11 nəfərin namizədliyi təşəbbüs qrupları tərəfindən irəli sürülüb. 1057 nəfər namizəd öz təşəbbüsü ilə seçkiyə qatılıb. Deputatlığa namizədliyi qeydə alınan şəxslərdən 82 nəfəri 18-28 yaş, 407 nəfəri 29-39 yaş, 542 nəfəri 40-45 yaş, 221 nəfəri 56-66 yaş, 43 nəfəri isə 67 yaşdan yuxarı olan şəxslərdir. 1998-ci ildə anadan olan və hazırda 22 yaşı olan 8 nəfər də deputatlığa namizədliyini irəli sürüb. Namizədlərin 79 faizi kişilər, 21 faizi qadınlardır.

Milli Məclisə seçkilərdə deputatlığa namizədliyi qeydə alınmış şəxslərin yanvarın 17-dən başlanmış seçkiqabağı təşviqat kampaniyası dünən saat 8:00-da başa çatıb. Seçki qanunvericiliyinə əsasən, qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, səlahiyyətli nümayəndələr, vəkil edilmiş şəxslər tərəfindən aparılan seçkiqabağı təşviqat kampaniyası səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Seçkiqabağı təşviqat məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən “Sərbəst toplaşmaq azadlığı haqqında” qanuna uyğun olaraq şəhər və rayonlarda 118 seçki dairəsi üzrə 128 açıq və 128 qapalı, cəmi 256 yer müəyyən edilmişdi.

Seçkiləri siyasi partiyaları, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını və qeydə alınmış namizədləri təmsil edən müşahidəçilər izləyəcəklər. Budəfəki parlament seçkilərində 77 min 790 yerli müşahidəçi qeydiyyatdan keçib. Eyni zamanda 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Onlar 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirlər. Həmçinin seçkini 132 beynəlxalq KİV-in 199 təmsilçisi işıqlandıracaq.

Beynəlxalq təşkilatlar Azərbaycanda seçki mühitini yüksək qiymətləndirirlər. Məsələn, Müstəqil Dövlətlər Birliyinin müşahidə missiyasının aralıq hesabatında bildirilir ki, monitorinq çərçivəsində MDB-dən olan uzunmüddətli müşahidəçilər Bakı ilə yanaşı, 21 rayon və şəhərdə seçki kampaniyasını izləyiblər. Onlar qənaətə gəliblər ki, bu sayda namizədin seçki kampaniyasında iştirakı seçki sisteminin açıq olduğunu, ölkədə siyasi plüralizm və seçicilər üçün real seçim imkanının yaradılmasını göstərir.

Azərbaycandakı seçki praktikasının şəffaflığını göstərən başqa bir faktor isə müxtəlif təşkilatlara “exit-poll” keçirmək üçün imkanların yaradılmasıdır. Budəfəki parlament seçkilərində də “exit-poll”un keçirilməsi təmin olunub. Belə ki, seçkilərdə “exit-poll” keçirmək məqsədilə MSK-ya müraciət edən 3 təşkilatın hamısı qeydə alınıb. Onların da 2-si öz fəaliyyətini xarici partnyorları ilə birgə quracaq.

Altıncı çağırış Milli Məclisə seçkilərin gedişatını internetdən birbaşa izləmək mümkün olacaq. Belə ki, ölkə üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən canlı müşahidə etmək imkanına malikdirlər.

Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi tərəfindən səsvermənin gedişi və onun nəticələri barədə saat 10.00, 12.00, 15.00, 17.00 və 19.00-da ilkin məlumatlar veriləcək.

*“Azərbaycan”*

## Mövlud ÇAVUŞOĞLU: “Hörmətli Prezident İlham Əliyevin mənə “Dostluq” ordenini təqdim etməsindən böyük şərəf duydum”



Hörmətli Prezident İlham Əliyevin mənə “Dostluq” ordenini təqdim etməsindən böyük şərəf və xoşbəxtlik duydum.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu şəxsi “Twitter” səhifəsində yazıb.

Prezident İlham Əliyevin ona ordeni təqdim etdiyi zaman çəkilən fotonu da paylaşan nazir mətnin imza yerində Azərbaycan və Türkiyənin dövlət bayraqlarını yerləşdirib.

## Mərkəzi Seçki Komissiyasının sədri Milli Məclisə seçkilərlə əlaqədar mətbuat konfransı keçirib

Bu gün Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 9 fevral Milli Məclisə seçkilərlə əlaqədar mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, MSK sədri bütün seçki məntəqələrinin səsvermə üçün tam hazır vəziyyətə gətirildiyini bildirib. Qeyd edib ki, seçkilər elan edildikdən sonra MSK tərəfindən bütün lazımi tədbirlər görülüb. MSK və dairə seçki komissiyaları bütün addımları Seçki Məcəlləsinin tələblərinə uyğun atıb.

Məzahir Pənahov deyib ki, parlament seçkiləri 125 seçki dairəsi üzrə 5573 məntəqədə keçiriləcək. 125 dairənin 10-u məcburi köçkün dairələridir. 340 min 689 məcburi köçkün 523 məntəqədə səs verə biləcək. 5573 məntəqənin 1000-də veb-kameralar quraşdırılıb. Məntəqələrə 5 milyon 387 min 600 seçki bülleteni paylanılıb.

Sədr qeyd edib ki, 5 milyon 329 min 460 vətəndaş 9 fevral parlament seçkilərində səsvermə hüququndan istifadə edə biləcək.

*Ardı 2-ci səh.*

## Türk Şurasının nüfuzu yüksəlir

### Bu qurumun Bakıda keçirilən Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasında türkdilli ölkələrin birliyinə töhfə verəcək yeni strategiya müzakirə olundu

Bu həftə paytaxtımız Bakı daha bir mötəbər toplantıya evsahibliyi etdi. Türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış sazişə əsasən yaradılan (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası) təşkilatın növbədənkənar iclasında bir sıra mühüm məsələlər müzakirə edildi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də müzakirə olunduğu iclasda üzv ölkələr arasında əlaqələrin genişləndirilməsi, Türk Şurası ilə əməkdaşlıq etmək istəyən ölkələrlə bağlı məsələ ətrafında fikir mübadiləsi aparıldı.

Əvvəlcə onu qeyd edək ki, Türk Şurası türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım edən beynəlxalq hökumətlərarası təşkilatdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir. Macarıstan müşahidəçi üzv statusuna malikdir. 2019-cu ilin sentyabr ayında Özbəkistanın Türk Şurasına üzv olması barədə qərar qəbul edilib.

Dörd təsisçi ölkədən biri olan Azərbaycan yarandığı ilk tarixdən etibarən şura ilə sıx əməkdaşlıq edir. Təşkilatın təsis edildiyi tarixdən bu günə qədər iqtisadi əməkdaşlıq çərçivəsində bir sıra tədbirlər, iqtisadiyyat, gömrük və nəqliyyat nazirlərinin görüşləri keçirilib. Bundan başqa, üzv dövlətlər arasında ticarət-iqtisadi münasibətləri inkişaf etdirmək məqsədilə nəqliyyat və gömrük sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verilib. Üzv dövlətlərin ərazilərindən keçən Mərkəzi Nəqliyyat Dəhlizi boyunca səmərəli nəqliyyat əməliyyatlarının davamlı, mərkəzləşmiş və asan keçidinə əngəl yaradan mövcud maneələrin aradan qaldırılması istiqamətində səylər davam etməkdədir.

*Ardı 2-ci səh.*




## Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft məhsulları ixracının yeni erası başlayır

Məlum olduğu kimi, Prezident İlham Əliyev “Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda qeyri-neft ixracatının artırılması istiqamətində ciddi tapşırıqlar vermişdir.

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı rəhbərlik etdiyi qurumun saytında dərc olunan məqaləsində qeyd etmişdir ki, dövlət başçısının birbaşa təşəbbüsü və rəhbərliyi ilə ölkənin qeyri-neft ixrac potensialının reallaşdırılması istiqamətində konkret tədbirlər həyata keçirilir.

Həmin tədbirlərdən yazan müəllif bildirir ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən 4 dövlət proqramının icrası nəticəsində son 16 ildə xarici ticarət dövriyyəsi 6,4, ixrac 7,6, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır. 2017-ci ildə qeyri-neft ixracında 24, 2018-ci ildə 10, 2019-cu ildə isə 14 faiz artım qeydə alınmışdır:

*Ardı 4-cü səh.*

## 1 milyon 120 min nəfərin pensiyası artırıldı

### Bu, dövlətin həm iqtisadi gücünü, həm də siyasətinin mərkəzində vətəndaşın maraqlarının dayandığını bir daha təsdiq edir

Məlum olduğu kimi, Prezident İlham Əliyev bu ayın 6-da “Əmək pensiyalarının indeksləşdirilməsi haqqında” sərəncam imzalayıb. Həmin sərəncamla cari il yanvarın 1-i tarixinə 2019-cu il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırılır.

Dövlət başçısının imzaladığı fərman və sərəncamlara əsasən, ölkədə aparılan dərin sosial islahatlar davam edir. Təkcə keçən il belə islahatlar əhalinin 42 faizinin gündəlik gəlirlərinin artırılmasına, rifahının yüksəldilməsinə səbəb oldu.

Bir ildə iki sosial paketin həyata keçirilməsi nadir hadisə idi. Bu, Azərbaycan dövlətinin iqtisadi islahatlarla yanaşı olaraq apardığı sosial islahatların aydın təzahürü idi. Belə ki, keçənilki tədbirlər 4,2 milyon insanı əhatə etdi. Minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlərin bir qismi 50 faiz, bəziləri isə iki dəfə artırıldı.

Prezidentin bu günlərdə imzaladığı növbəti sərəncama əsasən isə sığorta prinsipi ilə pensiya alan bütün pensiyaçıların - 1 milyon 120 minə yaxın insanın pensiyasına artım şamil edilir. Artımın həyata keçirilməsi məqsədilə illik təxminən 560 milyon, aylıq 47 milyon manat əlavə vəsaitin xərclənməsi nəzərdə tutulur. Xatırladaq ki, keçənilki pensiya artımları illik 450 milyon manat vəsait tələb edirdi.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, bu vəsaitlər Dövlət Sosial Müdafiə Fondunun gəlirləri hesabına maliyyələşdiriləcək və dövlət büdcəsinə əlavə yük olmayacaq.

*Ardı 4-cü səh.*

# SEÇKİLƏRDƏ FƏAL İŞTİRAK EDİN!

# Mərkəzi Seçki Komissiyasının sədri Milli Məclisə seçkilərlə əlaqədar mətbuat konfransı keçirib





*Əvvəli 1-ci səh.*

MSK sədri diqqətə çatdırıb ki, parlament seçkilərində 1314 deputatlığa namizəd mübarizə aparacaq. Qeydə alınanlardan 246 nəfərin namizədliyi siyasi partiyalar tərəfindən, 1057 nəfərin namizədliyi öz təşəbbüsü ilə, 11 nəfərin namizədliyi isə təşəbbüs qrupları tərəfindən irəli sürülüb. Ümumilikdə partiya mənsubiyyəti olan namizədlərin sayı 305-dir. Namizədliyi qeydə alınanların 79 faizi kişilər, 21 faizi qadınlardır. Parlament seçkilərində iştirak etmək üçün ümumilikdə 2431 nəfər müraciət etmişdi. Namizədliyi qeydə alınmış 1637 nəfərdən indiyə qədər 321 nəfəri namizədliyini geri götürüb, 2 nəfərin isə namizədliyi ləğv edilib.

Məzahir Pənahov deyib ki, Milli Məclisə seçkilərlə əlaqədar 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Beynəlxalq müşahidəçilər 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirlər. Göründüyü kimi, beynəlxalq müşahidəçilər həm say baxımından, həm də coğrafi baxımdan kifayət qədər əhatəlidir. Qeydiyyatdan keçmiş yerli müşahidəçilərin sayı isə 77 min 790-dır. Onlardan 35 min 152-si siyasi partiyaların, 2737-si isə QHT-lərin təmsilçiləridir.

Sədr bildirib ki, parlament seçkilərinin gedişini 132 beynəlxalq KİV-in 199 təmsilçisi işıqlandıra biləcək. Bu KİV-lər 47 ölkəni təmsil edirlər. Buraya ABŞ, Meksika, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə, Rusiya və digər ölkələrin media təmsilçiləri daxildir. Beynəlxalq jurnalistlər yerli parlament seçkilərində yerli mətbuat nümayəndələri ilə eyni hüquqa malikdir. Onlar da yerli jurnalistlər kimi heç kimdən icazə almadan sərbəst şəkildə seçki məntəqələrinə daxil ola bilərlər.

Məzahir Pənahov həmçinin qeyd edib ki, Mərkəzi Seçki Komissiyasına daxil olan 47 müraciətin 25-i namizədliyin qeydə alınması ilə bağlı olub. Doqquz nəfərin namizədliyi bərpa olunub, iki nəfərin namizədliyi ikili vətəndaşlığı olduğuna görə ləğv edilib. Ağır cinayətlərdə məhkum edilmiş və məhkumluğu ödənməmiş vətəndaşlardan beşinin namizədliyinin qanunvericiliyə görə qeydə alınması mümkün olmayıb. Müraciət edənlərdən 13 nəfərinin namizədliyi isə əmlakla bağlı məlumatları səhv verdikləri üçün qeydə alınmayıb.

Bildirilib ki, səsvermə səhər saat 08:00-da başlayacaq və axşam saat 19:00-da başa çatacaq.

# Dağlıq Qarabağın azərbaycanlı icmasının bəyanatı BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü ilə bağlı bəyanatı BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.

AZƏRTAC xəbər verir ki, icmanın bəyanatında Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindən və işğal edilmiş digər rayonlarından olan məcburi köçkünlərin 30 ilə yaxındır erməni təcavüzündən əziyyət çəkdiyi bildirilir. Qeyd edilir ki, 1988-ci ildə azərbaycanlılara qarşı başlayan etnik təmizləmə siyasəti nəticəsində Ermənistan Azərbaycan ərazisinin beşdəbirini işğal edib. Bu zaman 700 mindən çox azərbaycanlı ata-baba yurdundan didərgin düşüb. Torpaqlarımızın işğalı zamanı minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, bir çox mülki şəxs itkin düşüb. Bir gecədə 613 mülki şəxsin, o cümlədən qadınların, uşaqların və qocaların erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə qətlə yetirildiyi Xocalı şəhərində törədilən soyqırımı azərbaycanlılara qarşı törədilmiş ən böyük qətliam kimi tarixə yazılıb. Təəssüf ki, bu cinayətləri törədənlər hələ də öz layiqli cəzalarını almayıblar.

Qeyd edilir ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və Baş Assambleyası da daxil olmaqla dünya birliyi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qəbul edərək, ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə hörmət etdiyini, Dağlıq Qarabağ bölgəsi Azərbaycan Respublikasının ayrılmaz hissəsi olaraq tanıdığını və bütün azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtmaq hüquqlarını dəfələrlə və təsdiq edib.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını təmin edə biləcək, eləcə də zor gücünə didərgin salınmış azərbaycanlı əhalinin bu ərazilərdə evlərinə və mülklərinə təhlükəsiz şəraitdə və ləyaqətlə qayıtmaları, ərazilərin bərpası, iqtisadi inkişafı və Dağlıq Qarabağ bölgəsindəki erməni və azərbaycanlı icmalarının bərabərhüquqlu şəraitdə, ayrı-seçkiliyə yol verilmədən dinc şəraitdə birgəyaşayışına imkan yaradan, bir sözlə, münaqişənin sülh yolu ilə həllini dəstəkləyir.

Ancaq Ermənistanın yürütdüyü açıq işğalçılıq siyasəti və Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi təhqiramiz ifadəsində də özünü göstərən ilhaqa yönəlmiş siyasəti fonunda sülhə və barışığa hazırlaşmaq çox çətindir. Bunun əksinə, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının mövcudluğunu qəbul etməkdən, təməl hüquq və azadlıqlarımızı tanımaqdan belə imtina edir və Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki azərbaycanlı və erməni icmaları arasındakı təmasların qarşısını bütün vasitələrlə almağa çalışır. Bu, Ermənistanın Azərbaycan ərazilərini işğal edərək yürütdüyü işğalçılıq siyasətinin əsasını təşkil edir və Ermənistanın insan hüquqlarına dərin hörmətsizliyinin bir daha bir açıq sübutudur.

Ermənistan azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtmalarına mane olmaqla, bu ərazilərdə demoqrafik tərkibin süni şəkildə dəyişdirilməsi cəhdləri ilə, həmçinin həmin ərazilərin iqtisadi, sosial və mədəni xüsusiyyətlərinin dəyişdirilməsinə yönəlmiş məqsədyönlü addımlar atmaqla işğal olunmuş əraziləri müstəmləkəyə çevirməyə hədəflənmiş siyasət aparır.

"Dünya ictimaiyyətinə səslənirik ki, 30 ildir davam edən erməni təcavüzünə, yüz minlərlə azərbaycanlının öz yurdlarından didərgin salınaraq məruz qoyulduğu əzablara göz yummasınlar və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etmək və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktında təsbit edilmiş beynəlxalq hüququn norma və prinsipləri əsasında, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə tam hörmət əsasında həlli üçün səylərini daha da artırsınlar", - deyə bəyanatda bildirilir.

# Mərkəzi Seçki Komissiyasında MDB PA-nın nümayəndə heyəti ilə görüş

Fevralın 8-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının (MDB PA) nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov Azərbaycanda keçirilən seçkilərin daim yerli və beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla izlənildiyini söyləyib. MSK sədri parlament seçkiləri ilə əlaqədar namizədlərə yaradılan şərait barədə nümayəndə heyətinə məlumat verib. O qeyd edib ki, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün imkanlar yaradılıb. Şəffaflığın təmin olunması üçün əlavə vasitə kimi bütün ölkə üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. MSK başda olmaqla bütün seçki komissiyaları Milli Məclisə seçkilərə tam hazırdır.

Nümayəndə heyətinin üzvləri seçkilərə hazırlıqla bağlı görülən işləri yüksək dəyərləndiriblər.

Sonra Məzahir Pənahov qonaqların suallarını cavablandırıb, vətəndaşların aktiv və passiv seçki hüquqlarının yüksək səviyyədə təmin olunması üçün atılan addımları diqqətə çatdırıb.

# *Sergey BOJONEV:* "Seçkilərə hazırlıq prosesi yüksək səviyyədədir"



Fevralın 8-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MDB Parlament Assambleyası Belarus və Rusiya Parlament Birliyinin nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə MSK sədri qonaqlara seçkilərə hazırlıqla bağlı məlumat verib. M.Pənahov hazırlıq prosesinin şəffaf şəkildə aparıldığını bildirib. O, eyni zamanda əlil insanların səsvermə prosesində iştirakı üçün də şərait yaradıldığını deyib. Qeyd edib ki, seçkilər yerli və beynəlxalq müşahidəçilər tərəfindən izlənəcək, 1000 məntəqədə veb-kameralar quraşdırılıb.

Nümayəndə heyətinin rəhbəri Sergey Bojonev apardıqları müşahidələrə əsasən Azərbaycanda seçkilərə hazırlıq prosesinin yüksək səviyyədə olduğunu qeyd edib. Bildirib ki, onlar məntəqələrdə yaradılan şəraitlə tanış olublar və görülən işləri yüksək dəyərləndirirlər.

Sonra MSK sədri qonaqların suallarını cavablandırıb.

# Bir sıra ölkələrin MSK sədrləri və nümayəndələri Azərbaycanda seçkilərə hazırlıqla bağlı məlumatlandırılıb



Fevralın 8-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bir sıra ölkələrin Mərkəzi Seçki komissiyalarının sədrləri və nümayəndələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov seçkilərə hazırlıqla bağlı görülən işlər barədə məlumat verib. O, seçkilərin demokratik və şəffaf keçirilməsi üçün atılan addımları diqqətə çatdırıb. Bildirib ki, seçkilər yerli və beynəlxalq müşahidəçilər tərəfindən izlənəcək. 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Min məntəqədə veb-kameralar quraşdırılıb. Seçkilərin gedişini 132 beynəlxalq KİV işıqlandıracaq.

Qonaqlar müşahidələrinin seçkilərə hazırlıq prosesinin yüksək səviyyədə aparıldığını deməyə əsas verdiyini bildiriblər. Onlar məntəqələrdə yaradılan şəraitlə tanış olduqlarını, seçki prosesinin yüksək səviyyədə təşkil edildiyini vurğulayıblar.

Sonra MSK sədri qonaqların suallarını cavablandırıb.

# Türk Şurasının nüfuzu yüksəlir

## Bu qurumun Bakıda keçirilən Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasında türkdilli ölkələrin birliyinə töhfə verəcək yeni strategiya müzakirə olundu

*Əvvəli 1-ci səh.*




Xəzər dənizi və Qara dəniz limanları arasında əlaqələrin inkişafı, regionun multimodal nəqliyyat potensialının artırılması və Xəzər dəniz keçidinin nizamlanması üzv dövlətlərin nəqliyyat və gömrük sahəsi üzrə görüşlərinin gündəliyində xüsusi yer tutur. Samsun, Bakı və Aktau limanları arasında qardaş əlaqələrinin yaradılması bu istiqamətdə atılmış addımdır.

Bakıda fevralın 5-də Prezident İlham Əliyev növbədənkənar toplantıda iştirak etmək üçün Bakıya səfər edən Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşdə Azərbaycanın Türk Şurasına verdiyi önəmdən bəhs edərək vurğuladı ki, bu, Zirvə görüşündən sonra Xarici İşlər nazirlərinin Bakıda keçirilən birinci toplantısıdır. 2019-cu ildən başlayaraq Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb: "Biz çalışacağıq ki, bir il ərzində bu təşkilatın sədri kimi bütün üzv ölkələrin dəstəyi ilə fəal iş görək və bu ölkələr arasındakı əməkdaşlığı, dostluğu, qardaşlığı daha da möhkəmləndirək. Eyni zamanda, sizin səfəriniz yaxşı fürsətdir ki, biz ikitərəfli məsələləri bir daha müzakirə edək. Biz sizinlə bu yaxınlarda Davosda da görüşdük. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Yaxın gələcəkdə Bakıda Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Şurasının toplantısı keçiriləcəkdir və hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan bizim qonağımız olacaqdır".

Mövlud Çavuşoğlu isə qeyd etdi ki, Türk Şurasına sədrliyi uğurla davam etdirən Azərbaycanın türk dünyasının birliyi üçün töhfələrini ən yaxından bilən Türkiyədir. Bu baxımdan Zirvə görüşü çox uğurla keçib.

Türk Şurasının gücləndirilməsi istiqamətində tədbirlərin intensivləşdiriləcəyini söyləyən Mövlud Çavuşoğlu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin Xarici İşlər nazirlərinin Nyu Yorkda bir araya gələcəklərini diqqətə çatdırdı. Onun sözlərinə görə, təşkilatın katibliyinə yeni təkliflər hazırlamaq səlahiyyəti verilib: "Katibliyə yeni təkliflərin hazırlanması ilə bağlı səlahiyyət verilib. Həmin təkliflər Türk Şurasının bu il Türkiyədə keçiriləcək iclasında prezidentlərə təqdim ediləcək. Bundan sonra isə müşahidəçi ölkələrə status veriləcək".

Əlavə edək ki, Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasında fəxri prezident statusunun müəyyənləşdirilməsi, təşkilata üzv olmayan ölkələrlə, habelə beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi məsələləri də müzakirə mövzusu olub.

Toplantıda XİN başçıları üzv ölkələr arasında iqtisadi əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, təşkilat daxilində birliyin gücləndirilməsinin vacibliyini vurğulayıblar. Təşkilatın perspektivlərini müəyyən edən "Türk Şurası - 2025" adlı yeni strategiya da müzakirə edilən məsələlər arasında yer alıb.

XİN başçılarının görüşündən sonra keçirilən mətbuat konfransında da maraqlı təkliflər səsləndirilib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev bildirib ki, Türk Şurası daxilində investisiya institutunun yaradılmasına ehtiyac var. Onun fikrincə, investisiya fondunun yaradılması ilə bağlı işlər gedir və İstanbulda keçiriləcək sammitdə onun təqdimatı nəzərdə tutulur.

Baş katib həmçinin qeyd edib ki, növbədənkənar iclasda şurada müşahidəçi statusuna malik ölkələrə üzvlüyün verilməsi qaydaları müzakirə olunub. Habelə təşkilatın İƏT və BMT yanında müşahidəçi statusu alması, beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması imkanları nəzərdən keçirilib.

Bu bir həqiqətdir ki, Azərbaycan dövləti türk dünyasının daha da qüdrətlənməsi, türkdilli dövlətlərin beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış etməsi istiqamətində daim ciddi addımlar atıb. Hətta ölkə siyasətini digər türkdilli dövlətlərlə müqayisə etsək, görərik ki, bir çox dövlətlərdən fərqli olaraq Azərbaycan hər zaman türkdilli dövlətlərin mədəni, siyasi, iqtisadi və humanitar inteqrasiyasına da öz töhfəsini verib və bunu çəkinmədən edib.

Prezident İlham Əliyevin son 16 illik uğurlu xarici diplomatiyasının prioritetlərindən biri də məhz türk dünyasının qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsidir. Cənab İlham Əliyev türk dövlətləri arasındakı qarşılıqlı əlaqələrin genişlənməsi, türk dünyasının müasir dünyada özünəməxsus yerini tutması uğrunda müasir dövrün türk lideri olaraq böyük xidmət göstərməkdədir. Belə ki, Azərbaycan Prezidenti təkcə Türk Şurasının Zirvə görüşlərində deyil, qardaş ölkələrə bütün səfərlərində istənilən sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı təklifləri irəli sürür.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# TÜRKPA-nın müşahidə missiyası Bakıdadır



TÜRKPA-nın beynəlxalq müşahidəçilər missiyası 9 fevral Milli Məclisə seçkilərin qısamüddətli müşahidəsini həyata keçirmək məqsədilə Bakıya gəlib.

TÜRKPA-dan AZƏRTAC-a bildirilib ki, missiyaya qurumun Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri İsmet Uçma rəhbərlik edir. Missiyanın tərkibində deputatlar Berik Ospanov (Qazaxıstan), Dinar Nuketayeva (Qazaxıstan), Ziyadin Jamaldinov (Qırğızıstan), Baxadır Suleymanov (Qırğızıstan), Almazbek Baatırbekov (Qırğızıstan), Yaşar Karadağ (Türkiyə), eləcə də TÜRKPA Katibliyinin diplomatik qrupu yer alıb.

Missiya fevralın 8-də TÜRKPA Katibliyində iclas keçirib və müşahidə proqramının əsas istiqamətləri üzrə fikir mübadiləsi aparıb.

# *Dmitri KOBİTSKİ:* "Azərbaycan Mərkəzi Seçki Komissiyası böyük işlər görüb"

Milli Məclisə keçiriləcək seçkiləri müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan MDB ölkələri Parlamentlərarası Assambleyasının beynəlxalq müşahidə missiyasının üzvləri fevralın 8-də Bakıda İkinci Dünya müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış "1941-1945-ci illər" abidəsinin önünə əklil qoyublar. Onlar qəhrəmanların və müharibədə həlak olanların xatirəsini yad ediblər.

Sonra qonaqlar Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin abidəsinin önünə gül dəstələri qoyublar.

MDB ölkələri Parlamentlərarası Assambleyası Şurasının baş katibi Dmitri Kobitski jurnalistlərə müsahibəsində bildirib ki, onun rəhbərlik etdiyi təşkilat artıq 20 ildən çox, yəni yarandığı gündən bəri MDB-yə üzv dövlətlərin hamısında seçkilərin monitorinqi ilə məşğul olur. "Bu il biz öz işimizə Azərbaycanda keçiriləcək seçkilərdən başlamışıq. Mən seçkilərə hazırlıq prosesi ilə bağlı məmnunluğumu ifadə etmək istəyirəm, hər şey ən yüksək səviyyədə təşkil olunub. Azərbaycan Mərkəzi Seçki Komissiyası böyük işlər görüb və əlindən gələni edib ki, seçkilər bütün qaydalara və tələblərə uyğun keçsin. Nümayəndə heyətimizin üzvləri seçki məntəqələrində olacaq və bundan sonra yekun hesabatı hazırlanacaq", - deyə o qeyd edib.



Sonra MDB ölkələri Parlamentlərarası Assambleyası müşahidəçilər qrupunun əlaqələndiricisi Sadık Safayev jurnalistlərə deyib ki, Azərbaycana gələn heyət onun üzərinə düşən bütün məsuliyyəti dərk edir. O əlavə edib: "Bu, ölkənin siyasi həyatında mühüm hadisədir. Bu seçkilərə əhalinin böyük marağı müşahidə olunur. Əminəm ki, yeni parlament Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaq".

***AZƏRTAC***

# "The London Post" qəzetində seçkilərlə bağlı məqalə dərc olunub

Böyük Britaniyanın "The London Post" qəzetində fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın daha sürətli inkişafının təmin olunması məqsədilə Prezident İlham Əliyevin beşinci çağırış Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin edilməsi haqqında Sərəncamı ilə fevralın 9-da ölkədə parlament seçkilərinin keçiriləcəyi bildirilir. Yazıda bildirilir ki, bu seçkilər Azərbaycanın müstəqilliyinin ilk illərindən ölkədə Heydər Əliyev tərəfindən həyata keçirilmiş demokratik və siyasi islahatların bir hissəsidir. Hazırda bu siyasi islahatlar Heydər Əliyevin layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Məqalədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun seçkilərə hazırlıq prosesi ilə bağlı fikirlərinə də istinad edilir. Parlament seçkilərini çoxsaylı yerli və xarici müşahidəçilərin izləyəcəyi diqqətə çatdırılır. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının müşahidə missiyalarının da seçki prosesini yaxından izləyəcəkləri vurğulanır.

# Vyetnamın müşahidə missiyası Azərbaycanda ilk dəfə olaraq seçkiləri izləyəcək

AZƏRTAC xəbər verir ki, müşahidə missiyasının rəhbəri Vyetnam Milli Assambleyasının deputatı, Vyetnam Elm və Texnologiya Birliyinin vitse-prezidenti Nqiyem Vu Xaydır. Müşahidə missiyası artıq Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar bir neçə dairə və məntəqə seçki komissiyasında seçkilərə hazırlıq prosesi ilə tanış olub. Nqiyem Vu Xay həm də Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədridir.

Qeyd edək ki, Milli Məclisə seçkilərlə əlaqədar 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Onlar 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirlər.

# Əlahiddə Çevik Polis Alayı yeni geyim formasına keçib



Daxili İşlər Nazirliyinin (DİN) Əlahiddə Çevik Polis Alayı yeni geyim formasına keçib.



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 8-də nazirliyin Əlahiddə Çevik Polis Alayında müasir və rahat, həmçinin daha keyfiyyətli materialdan olan yeni geyim formasının tətbiqi ilə əlaqədar Alayın şəxsi heyətinin sıra baxışını keçirib.

# Azərbaycan Ordusunda andiçmə mərasimi olub









Fevralın 8-də Azərbaycan Ordusunun təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış, məişət şəraiti ilə tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkiblər. Hərbi hissələrin komandanlığı ilə keçirilən görüşlərdə valideynləri maraqlandıran məsələlərin müzakirəsi aparılıb, həmçinin qonaqlar və şəxsi heyət üçün mədəni-kütləvi tədbirlər təşkil olunub.

# Dərs ilinin birinci yarımilinin yekunlarına dair müşavirə keçirilib

Naxçıvan Qarnizonu tam orta məktəbində və Heydər Əliyev adına Hərbi Liseydə 2019-2020-ci dərs ilinin birinci yarımilinin yekunlarına dair müşavirə keçirilib. Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Qarnizonu tam orta məktəbində keçirilən müşavirədə məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov və digər çıxış edənlər məktəbdə yaradılmış müasir tədris şəraitindən, hər il qəbul imtahanlarında qazanılan yüksək nəticələrdən və uğurlardan danışıblar.





Müşavirədə Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev bildirib ki, "Təhsil millətin gələcəyidir" deyən Ümummilli Lider Heydər Əliyevin siyasi kursu bu gün uğurla davam etdirilir. Naxçıvan Qarnizonu tam orta məktəbində əsaslı təmir işlərinin aparılması, maddi-texniki bazanın daim təkmilləşdirilməsi və təlim-tədris üçün əlverişli şəraitin yaradılması növbəti qayğının ifadəsidir.

General-leytenant Kərəm Mustafayev 2019-2020-ci dərs ilinin birinci yarımilini təhlil edərək ikinci yarımildə qarşıya qoyulan əsas tapşırıqları diqqətə çatdırıb. Vurğulanıb ki, məktəbdə tədrisin səmərəliliyinin artırılması üçün IX-XI sinif şagirdləri və onların valideynləri ilə maarifləndirici söhbətlər aparılmalı, buraxılış imtahanlarına hazırlıq işləri aparmaqla bərabər imtahanqabağı məşğələlər təşkil edilməli, zəif nəticə göstərən şagirdlər xüsusi nəzarətə götürülməli, fiziki hazırlığa nəzarət gücləndirilməli və şagirdlərin yarışlarda iştirakı təmin edilməli, "Oxunması zəruri olan kitablar"ın mütaliə və müzakirəsi, eləcə də müəllimlər üçün yeni təlim texnologiya və metodlarından istifadə etməklə seminar və treninqlər keçirilməlidir.

* * *

Heydər Əliyev adına Hərbi Liseydə keçirilən müşavirədə isə Hərbi Liseyin rəisi, general-mayor Məhəmməd Həsənov və digər çıxış edənlər pedaqoji kollektivin peşəkarlığı nəticəsində kursantların təhsilində və intizamında uğurlar qazanıldığını vurğulayıblar.

Müşavirədə çıxış edən Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev deyib ki, Heydər Əliyev adına Hərbi Lisey Ümummilli Liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan kimi gələcəyin vətənpərvər, savadlı və peşəkar zabitlərinin yetişdirilməsi yolunda inamlı addımlar atır. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə hərbi lisey mühüm təşkilatlanma və inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb.

General-leytenant Kərəm Mustafayev dərs ilinin ikinci yarımilində hərbi liseyin yerinə yetirməli olduğu əsas tapşırıqları diqqətə çatdıraraq bildirib ki, gələcəyin zabitlərinin peşəkar səviyyədə hazırlanması üçün tədrisdə yüksək nəticələr göstərmiş kursantlarla mütəmadi işlər aparılmalı, liseyin qabaqcıl müəllimlərinin cəlb edilməsi ilə dərsdənkənar və dərnək məşğələlərinin səmərəliliyi artırılmalı, kursantların asudə vaxtlarında viktorina və əyləncəli oyunlar keçirilməli, dərslərdə əyani vəsaitlərdən, elektron lövhə, kompüter və laboratoriyaların imkanlarından səmərəli istifadə olunmalıdır.

Vurğulanıb ki, fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilmiş müşavirədə qarşıya qoyulmuş vəzifələrin icrası və idmanın kütləviliyinə nail olunması məqsədilə hərbi liseydə də fiziki hazırlıq dərslərinin keyfiyyəti artırılmalı və kursantların yarışlarda iştirakı təmin edilməlidir.

# Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin təşkilatçılığı ilə Həştərxanda "Xəzər mükafatı - 2020" Gənclər Festivalı keçiriləcək




Fevralın 14-də Həştərxan Dövlət Filarmoniyasında "Xəzər mükafatı - 2020" Gənclər Festivalı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, layihənin təşkilatçısı "LUkoyl-Nijnevoljskneft" MMC-nin və "Qorod Astraxan" bələdiyyə qurumu administrasiyasının dəstəyi ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) Həştərxan regional bölməsidir.

Layihənin məqsədi yaradıcı şəxslər arasından ən istedadlılarını və kreativ olanları seçməkdir. Birinci festival Həştərxanda 2012-ci ildə keçirilib və 15 nominasiyada yarışan yüzədək iştirakçını bir yerə toplayıb. Bu il 500-dən çox adam müraciət edib, nominasiyaların sayı isə 40-dan çoxdur.

"Xəzər mükafatı - 2020" Gənclər Festivalında Rusiyanın 16 regionunun və 9 ölkənin, o cümlədən Azərbaycanın nümayəndələri iştirak edəcəklər. Gözlənildiyinə görə, mükafatlandırma mərasimində Rusiya regionlarından və yaxın xarici ölkələrdən artistlər çıxış edəcəklər.

Festivalın təşkilatçısı, RAGB-nin Həştərxan regional bölməsinin sədri Elvin Hüseynovun sözlərinə görə, Rusiya Federasiyasının subyektlərindən, xarici ölkələrdən, o cümlədən Xəzəryanı ölkələrdən nominantlar festivala qatılacaqlarını artıq təsdiq ediblər.

Səsvermə fevralın 13-də başa çatacaq. Yekun nəticələr fevralın 14-də Həştərxan Dövlət Filarmoniyasında keçiriləcək qala-konsertdə açıqlanacaq.

# *"Əl-Əxbar" qəzetinin redaktoru:* "AZƏRTAC Azərbaycanla ərəb dünyası arasında media körpüsüdür"

"AZƏRTAC Azərbaycanla ərəb dünyası arasında media körpüsü rolunu oynayır və ölkələrimizin KİV-i arasında əməkdaşlığın dərinləşdirilməsi zamanın çağırışıdır".

Bu fikirlər Azərbaycanda parlament seçkilərinin gedişini işıqlandırmaq üçün ölkəmizə səfər edən Misir, Mərakeş və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) bir qrup jurnalisti ilə AZƏRTAC-da keçirilən görüşdə səslənib.

İdarə Heyətinin sədri Aslan Aslanov görüş zamanı Azərbaycan və ərəb ölkələri arasında münasibətlərin tarixindən, media qurumlarının apardıqları informasiya mübadiləsinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına verdiyi töhfələrdən danışıb. Qonaqlar ölkəmizdə dinamik inkişafın, mətbuat və söz azadlığının, seçki prosesinin şəffaf və demokratiya prinsiplərinə uyğun təşkil edildiyinin şahidi olduqlarını bildirib və bunu yüksək qiymətləndiriblər.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrlə əməkdaşlığın inkişafına daim böyük diqqət ayırdığı, Birinci vitse-prezident Mehriban Əliyevanın xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə böyük töhfə verdiyi vurğulanıb. İƏT-in Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini birmənalı dəstəkləməsinin xalqımız tərəfindən rəğbətlə qarşılandığı bildirilib.

"Bu xoş münasibətlər fonunda AZƏRTAC ilə ərəb ölkələrinin informasiya agentlikləri arasında da sıx tərəfdaşlıq əlaqələri yaranıb. Biz Misirin MENA, Səudiyyə Ərəbistanının SPA, Küveytin KUNA, Livanın NNA, Birləşmiş



Ərəb Əmirliklərinin WAM, Qətərin QNA agentlikləri ilə mütəmadi informasiya mübadiləsi aparırıq. Eyni zamanda, bu ölkələrin bir sıra qəzetlərinin rəhbərləri agentliyimizdə olub. Biz əməkdaşlığı daha da genişləndirmək barədə razılığa gəlmişik. Tezliklə Qahirədəki müxbir məntəqəmiz fəaliyyətini bərpa edəcək. Düşünürəm ki, bu, ümumilikdə Yaxın Şərq regionunun KİV ilə əlaqələrinin daha da intensivləşməsinə təkan verəcək" deyə Aslan Aslanov bildirib.

AZƏRTAC 2017-ci ildən İƏT-ə üzv dövlətlərin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) İcraiyyə Şurasının üzvüdür. UNA-da 57 ölkənin milli xəbər agentliyi təmsil olunur. Agentlik həmçinin Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatında (OANA) da ərəb ölkələrindən olan həmkarları ilə sıx əməkdaşlıq edir.

Azərbaycanda dəfələrlə olduğunu, hər gəlişi zamanı gördüyü misilsiz inkişafın onu sevindirdiyini bildirən Misirin "əl-Əxbar" qəzetinin redaktoru Məhəmməd Salama ölkəmizlə bağlı bir sıra kitablar nəşr etdirdiyini diqqətə çatdırıb. Qeyd edib ki, 20 Yanvar hadisələri, Xocalı soyqırımı, Dağlıq Qarabağ münaqişəsi barədə araşdırmalarında əsasən AZƏRTAC-ın materiallarından yararlanıb.

Misirin "Diplomatiya" qəzetinin baş redaktoru Əşrəf Əbu Ərif, BƏƏ-nin "əl-Fəcr" qəzetinin redaktoru Şərif əl-Bəsil və digərləri AZƏRTAC-ın ərəb dilində yaydığı xəbərləri daim izlədiklərini, agentliyin Azərbaycanla ərəb dünyası arasında media körpüsü rolunu oynadığını vurğulayıblar. Qeyd ediblər ki, AZƏRTAC onlar üçün Azərbaycanla bağlı əsas və mötəbər informasiya mənbəyidir. Bu istiqamətdə əməkdaşlığı dərinləşdirmək istədiklərini bildirən qonaqlar birgə layihələr həyata keçirmək, o cümlədən müəllif yazılarının mübadiləsini aparmaq təklifini irəli sürüblər.

Söhbət zamanı jurnalistlərin qarşılıqlı səfərlərinin təşkili, ölkələrimiz haqqında reportajların hazırlanması, əməkdaşlıqla bağlı digər məsələlər nəzərdən keçirilib.

Sonda Məhəmməd Salama, Misirin "Dialoq" mərkəzinin rəhbəri Əhməd Tahir Azərbaycanla bağlı nəşr etdirdikləri kitabları və jurnalları AZƏRTAC-a hədiyyə ediblər.

Görüşdə həmçinin "əl-Bəyan", "əl-İslah və ət-Tənmiyə" qəzetlərinin, "İRİS" media press xidmətinin və UNA-nın nümayəndələri, Azərbaycanın BƏƏ-dəki səfirliyinin birinci katibi Eldəniz Musayev və Azərbaycanın Misirdəki səfirliyinin ikinci katibi Emil Rəhimov iştirak ediblər.

# "Yüksəliş" müsabiqəsinin ilk sınaq imtahanı keçirilib

Fevralın 8-də "Yüksəliş" müsabiqəsinin ümumi biliklər üzrə onlayn mərhələsinin ilk sınaq imtahanı keçirilib.

AZƏRTAC xəbər verir ki, imtahan saat 10:00-da və 15:00-da olmaqla iki növbədə təşkil edilib. İştirakçılar əvvəlcədən şəxsi kabinetlərinə göndərilən müvafiq vaxta uyğun imtahana qatılıblar.

Suallar tarix, coğrafiya, ədəbiyyat və mədəniyyət, hüquq və iqtisadiyyat olmaqla 4 blok üzrə aparılıb. Ümumilikdə 84 sual üçün iki saat vaxt ayrılıb. Sınaq imtahanında 6944 namizəd iştirak edib. İmtahan müddəti müsabiqənin işçi qrupu tərəfindən xüsusi nəzarətdə saxlanılıb. "Yüksəliş" müsabiqəsi ilə bağlı yaradılmış Çağrı Mərkəzi və sosial şəbəkələr üzərindən 1793, elektron poçt vasitəsilə ünvanlanmış 2500-dən çox müraciət cavablandırılaraq iştirakçılara dəstək göstərilib. Sınaq imtahanının nəticələri növbəti mərhələlərdə iştirakçıların nəticələrinə təsir etmir. Ümumi biliklər üzrə onlayn mərhələnin əsas imtahanı fevralın 16-da keçiriləcək.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin iyulun 26-da imzaladığı Sərəncama əsasən, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Xarici neft şirkətləri Azərbaycanda sosial layihələrə dəstək verir

2019-cu il ərzində bp və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları Azərbaycanda sosial investisiya layihələrinə 3 milyon dollar xərcləmişlər. Ölkə iqtisadiyyatının güclənməsinə kömək etmək məqsədilə bp (özünün əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından) Azərbaycanın hər yerində yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən sosial investisiya layihələrini davam etdirəcək.

# Azərbaycan Xəzəryanı dövlətlərin davamlı inkişafı mövzusunda regional seminarda təmsil olunacaq

Türkmənistanın Avaza Milli Turizm Zonasında Beynəlxalq Okeanlar İnstitutunun (BOİ) təşkilatçılığı ilə martın 9-dan 20-dək "Xəzər dənizi - davamlı inkişaf və idarəetmə" mövzusunda regional seminar keçiriləcək.

AZƏRTAC xəbər verir ki, Xəzər dənizi İnstitutu və Türkmənistan Xarici İşlər Nazirliyi ilə birgə təşkil olunacaq tədbirdə Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın müvafiq qurumlarının nümayəndələri iştirak edəcəklər.

Tədbirin proqramına Xəzəryanı dövlətlərin iqtisadi, sosial və ekoloji inkişafının aspektlərinin, onların bu sahələrdə əməkdaşlığı ilə bilavasitə bağlı olan məsələlərin müzakirəsi daxildir.

Qeyd edək ki, Beynəlxalq Okeanlar İnstitutu BMT-nin xüsusi məşvərətçi orqanı statusuna malik qeyri-hökumət təşkilatıdır.

# Keçən il Göygöl rayonunda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı 12 faiz artıb

Keçən il Göygöl rayonunda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı əvvəlki ilə nisbətən 12 faiz artaraq 208,3 milyon manata çatıb.

Göygöl Rayon Statistika İdarəsindən bildirilib ki, istehsal edilmiş məhsulun rayon əhalisinin hər nəfərinə düşən dəyəri 3227,5 manat təşkil edib.

Məhsul və xidmətlərin 71,9 faizi istehsal sahələrinin, 28,1 faizi isə xidmət sahələrinin payına düşüb. Məhsul və xidmətlərin 61,3 milyon manatı kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 52,7 milyon manatı ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində, 42 milyon manatı tikintidə, 46,4 milyon manatı sənayedə, 5 milyon manatı nəqliyyat və anbar təsərrüfatı, 0,9 milyon manatı isə informasiya və rabitə sahələrində olub.

Əvvəlki illə müqayisədə məhsul istehsalı sənaye sahəsində 40,7 faiz, informasiya və rabitə xidmətləri sahələrində 8,3 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 4,9 faiz, tikintidə 30,2 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində 0,1 faiz artıb, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində isə sabit qalıb.

Məhsul buraxılışının 29,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrinin, 25,3 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrinin, 20,2 faizi tikinti sahəsinin, 22,3 faizi sənayenin, 2,4 faizi nəqliyyat və anbar təsərrüfatının, 0,4 faizi isə informasiya və rabitə sahələrinin payına düşüb.

***AZƏRTAC***

# Ermənistan ordusunun əsgərləri qar uçqunu altında qalıblar

AZƏRTAC erməni KİV-inə istinadla xəbər verir ki, yanvarın 7-də saat 17:02 radələrində Zəngəzur vilayətində (Syunik) Ermənistan silahlı qüvvələrinin hərbi hissələrinin birində 4 nəfər müqaviləli əsgər qar uçqunu altında qalıblar. Axtarışlar zamanı onlardan üçünün meyiti tapılıb, biri isə müxtəlif bədən xəsarətləri alıb. Ölənlər sıravi əsgər Karapet Nazaryan, kiçik serjantlar Tiqran Arzumanyan və Nvre Çahbazyandır. Sağ qalan isə sıravi əsgər Hamlet Mirzoyandır.

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft məhsulları ixracının yeni erası başlayır

Əvvəli 1-ci səh.

"Son 3 ildə qeyri-neft ixracının kumulyativ artımı 55 faizi ötmüşdür. Dövlət adından ixraca dəstək üçün Azexport.az portalı, Bir Pəncərə İxraca Dəstək Mərkəzi, ticarət evləri və nümayəndələri, ixrac subsidiyaları və missiyaları, beynəlxalq sərgilərdə iştirak və s. kimi dəstəkləyici tədbirlərdən uğurla istifadə edilmişdir. Əldə olunmuş uğurlardan sonra 4-cü sənaye inqilabının tələblərinə uyğun şəkildə Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft ixracının yeni erası başlayır".

Strateji yol xəritələrinə əsasən qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına 200 dollardan 2025-ci ildə ən azı 450 dollara qaldırılmasının hədəfləndiyindən yazan müəllif bildirir ki, həmin hədəfə çatmaq üçün bu il də daxil olmaqla biz qeyri-neft ixracını illik 15 faiz artırmalıyıq: "Azərbaycan iqtisadiyyatının idxal tələbi adambaşına ortalama 1000 dollardır. İdxalı tarazlaşdırmaq üçün Azərbaycandan hazırda adambaşına 2 min dollar həcmində məhsul ixrac olunur ki, bunun da 90 faizini getdikcə əlavə dəyəri azalan və qiymətləri dəyişkən olan neft-qaz təşkil edir. Deməli, qeyri-neft ixracının artımı iqtisadi təhlükəsizlik və makro sabitlik üçün strateji əhəmiyyətlidir. Amma qeyri-neft ixracının artımı kəmiyyət deyil, keyfiyyət, başqa sözlə, yaradılan mənfəət baxımından daha əhəmiyyətlidir". Yeri gəlmişkən qeyd edək ki, Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı"nda 2020-ci ilin iyul ayınadək yeni qeyri-neft ixracı strategiyasının hazırlanması nəzərdə tutulub.

Müəllifin yazdığına görə, Prezidentin həyata keçirdiyi ixracın dəstəklənməsi siyasətində dünya təcrübəsində mümkün olan hər üç istiqamət uğurla əhatə edilib: standart ticarət, qlobal dəyər zəncirləri və klasterial yanaşma. V.Qasımlı yazır: "Birincisi ondan başlayaq ki, müasir dünyada standart ticarətə nisbətən qlobal dəyər zəncirləri önəmini daha da artırır. Dünya Bankının hesablamalarına görə, dəyər zəncirində iştirakın 1 faiz artması hər nəfərə gəliri 1 faizdən də çox artırır, halbuki standart ticarətdə bu göstərici 0,2 faizdir. İxracda e-ticarət və e-kommersiya önə çıxır. UNESCAP-ın hesablamalarına əsasən, Azərbaycan kağızsız ticarət və ticarətin asanlaşdırılması kriteriyalarına görə Cənubi Avropadan başlamış Çinə qədər geniş bir coğrafiyada lider ölkədir. Azərbaycan, eyni zamanda standart ticarət imkanlarından geniş yararlanır. Məsələn, keçən il biz əlavə 800 meqavat elektrik enerjisi almaq hesabına elektrik enerjisi ixracını 17 faiz artırmışıq".

Müəllif daha sonra qeyd edir ki, Azərbaycan qlobal dəyər zəncirlərinə qoşulanda məhsulun istehsalının bütün mərhələlərinə (upstream, midstream və downstream) deyil, rəqabət üstünlüyü olan mərhələsində fokuslanmalıdır: "Məsələn, Banqladeş, Kamboca və Vyetnam geyim sənayesini inkişaf etdirməklə xammal ixracatından hazır məhsul ixracına keçidin yaxşı nümunəsini sərgilədilər. Amma hər üç ölkə hazır paltar ixracını tekstili idxal etməklə həyata keçirdilər. Təsəvvür edin ki, hər bir kiloqram pambıq mahlıcının ixracına nisbətən pambıq paltarın ixracı 3 dəfədən də çox gəlir gətirir. Azərbaycan ötən il 122 milyon dollar pambıq mahlıcı ixrac etmişdir ki, bunun da son məhsula çevrilməsi təxminən 400 milyon dollar gətirə bilərdi. Biz hazırda pambıq lifinin hər tonunu orta hesabla 1500 dollara satırıq. Bir addım emal dərinliyini artıranda, yəni pambıq ipliyi ixrac edəndə isə hər tonda orta hesabla 2500 dollar qazanırıq. Beləliklə, cənab Prezidentin bildirdiyi kimi, emal dərinliyinin artırılması üçün sahibkarlar daha çox sərmayə yatırmalıdırlar".

Müəllif daha sonra yazır ki, qlobal dəyər zəncirlərində ölkə, sektor və ya şirkət səviyyəsində iştirak etmək olar: "Burada iki formanı fərqləndirmək mümkündür - hörümçək formalı və ilan formalı. Məsələn, Azərbaycanda avtomobil istehsalı daha çox hörümçək formalı dəyər zəncirinə oxşayır. Müxtəlif ölkələrdən gətirilən avtomobil hissələri bizdə yığılır və son məhsula çevrilir, dəyərin bir hissəsi də bizdə qalır. Hörümçək formalı dəyər zəncirlərində üç məsələyə daha çox fikir verməliyik: məhsuldarlıq, bazarlara çıxış və dəyər zəncirində daha dərinə gedib istehsalı genişləndirmək".

İlan formalı dəyər zəncirlərindən yazan V.Qasımlı bildirir ki, biz onu nəqliyyat dəhlizlərinin üzərində qura bilərik: "Məsələn, Çindən Avropaya gedən fiberoptik kabel imkan verəcək ki, biz Azərbaycanda Data Mərkəzi yaradıb əldə olunmuş dataları emal edərək sataq. Hazırda dünyada da belə bir tendensiya var ki, qlobal dəyər zəncirləri həm də data axınlarının üzərində qurulur. Eyni prinsipi tətbiq etməklə Ələt Limanında - Azad İqtisadi Zonanın ərazisində Orta Asiyadan gələn məhsulları emal edərək Avropaya satmaq mümkündür".

Məlum olduğu kimi, Prezident İlham Əliyev sözügedən müşavirədə klasterial inkişafla bağlı çox vacib məqama toxunaraq bildirmişdir ki, SOCAR Polymer zavodunun istehsal etdiyi polimerlərin əsasında klaster yaratmalıyıq. Məqaləsində sözügedən məsələyə toxunan müəllif qeyd edir ki, Azərbaycan bu zavodu istifadəyə verməklə qabaqcıl istehsal müəssisəsi qurmuşdur: "Burada illik 300 min ton məhsul istehsal olunacaq və onun 70 faizi xarici bazarlara ixrac ediləcək. Göründüyü kimi, xammaldan məhsul istehsalına keçməklə daha çox dəyəri ölkədə saxlayırıq. Digər bir tərəfdən SOCAR Polimer multiplikasiya effekti yaradaraq ölkədə bir sıra sənaye sahələrinin inkişafını təmin edə bilər. Ötən il Azərbaycanın ixracının artmasında SOCAR Polimer və SOCAR Karbamid kimi zavodların əhəmiyyətli rolu olub. SOCAR Polimer layihəsinin müddətində 6,6 milyard dollar gəlir gətirməsi proqnozlaşdırılır. Bu gəlirin də təxminən 30 faizi xalis mənfəətdir. Buradan bizim büdcəyə 400 milyon dollar mənfəət vergisi gələcək və 450 milyon dollar da əlavə dəyər vergisi gəliri təmin olunacaq. SOCAR Polymerin istehsal etdiyi polietilen və polipropilen imkan verəcək ki, biz həmin məhsulları Azərbaycanda son məhsula çevirək".

Dövlət başçısı müşavirədə həm də xidmət ixracının əhəmiyyətini qeyd edərək bildirmişdir ki, keçən il xarici turistlər Azərbaycanda 4,3 milyard manat pul xərcləyiblər. Yəni turizm neftdən sonra ikinci ən gəlirli sahəyə çevrilib. Həmin faktı vurğulayan V.Qasımlı yazır ki, 2020-2023-cü illərdə turizmdə artım tempi 30 faizdən çox olacaq və bu, xidmət ixracının daha da artmasına zəmin hazırlayacaq.

Müəllif məqaləsinin sonunda yazır ki, Prezident İlham Əliyevin qeyri-neft ixracı ilə bağlı qarşıya qoyduğu əsas məqsəd ixracın daha çox mənfəət gətirməsi, regionlarımızın ixraca qoşulması, ixracın coğrafiyasının şaxələndirilməsi və ixraca daha çox KOB subyektlərinin cəlb olunmasıdır.

***Hazırladı: R.MƏMMƏDLİ, "Azərbaycan"***

## Tokioda Azərbaycanın investisiya imkanlarından danışılıb

Tokionun Otemaçi rayonunda yerləşən "Fuji Sankei Hall" biznes mərkəzində təşkil edilən XI Dünya Aktivlərin İdarə Olunması Yarmarkasında Azərbaycanın investisiya imkanlarından danışılıb.

Bu barədə AZƏRTAC-ın Yaponiyadakı bürosuna investisiyalar üzrə tanınmış ekspert, "Yaponların tanımadığı, sürətlə inkişaf edən ölkə - Azərbaycan" bələdçi kitabının müəllifi Kazuyasu İşida məlumat verib. Bildirib ki, tanınmış iş adamı Şinobu Naito tərəfindən təşkil edilən yarmarkada əsasən yapon sərmayəçilər üçün maraqlı ola biləcək xarici ölkələr barədə məlumat verilir.

Yarmarkada təqribən 1000-ə yaxın iş adamı iştirak edir. Tədbir zamanı həmin ölkələrin iqtisadiyyatı, yerli qanunvericilik və bu ölkələrə investisiya qoyuluşu ilə bağlı seminarlar keçirilir. Builki yarmarkada dörd seminar təşkil olunub və onlardan birincisi K.İşidanın təqdimatı ilə baş tutub. Həmin seminarda Azərbaycanın iqtisadi potensialı, həyata keçirilən nəhəng beynəlxalq layihələr, bu ölkəyə investisiya qoyuluşu ilə bağlı mövcud şərait, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən islahatlar barədə ətraflı məlumat verilib. Eyni zamanda Azərbaycanın turizm obyektləri, mədəni-tarixi abidələri, əsrarəngiz təbiəti və əvəzedilməz mətbəxi barədə danışılıb.

Seminar çərçivəsində K.İşidaya məxsus "YouTube" kanalı barədə də məlumat verilib. Qeyd edilib ki, həmin kanalda Azərbaycan barədə yerləşdirilmiş videomateriallar ölkəmiz haqqında daha çox informasiya əldə etmək istəyənlər üçün maraqlı ola bilər.

Seminardan sonra K.İşidanın müəllifi olduğu "Yaponların tanımadığı, sürətlə inkişaf edən ölkə - Azərbaycan" bələdçi nəşrinin və "Dəyişmək üçün əla yol - bunu bacarmıram" kitabının müəllif tərəfindən imzalanması mərasimi keçirilib.

## BTQ Avropa İttifaqının Anadolu ilə dəmir yolu əlaqələrinə marağını artırıb

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti Avrasiya məkanında polad magistralların açarı rolunu oynamağa başlayıb.



Hazırda geniş coğrafiyada cəlbedicilik yaradan bu marşrut Avropa İttifaqı (AB) ölkələrinin Türkiyə ilə dəmir yolu əlaqələrinin qurulmasında təkanverici qüvvəyə malikdir.

AZƏRTAC xəbər verir ki, Türkiyənin "Turistik Doğu Ekspres" qatarı bu dəfə Ankaradan Qarsa səfirləri aparıb. Türkiyə Nəqliyyat və İnfrastruktur nazirinin müavini Ömer Fatih Sayan, Avropa İttifaqının Türkiyə nümayəndəliyinin rəhbəri, səfir Kristian Berger və Aİ-nin bu ölkədəki səfirləri Ankara-Qars qatarının sərnişinləri olublar.

Səfərin məqsədi Türkiyənin dəmir yolu imkanlarını və regional inkişafını yerindəcə dəyərləndirməkdir. Çinin həyata keçirdiyi "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində London-Qars dəmir yolu ideyasının ortaya çıxması Avropa İttifaqının Anadolu ilə polad magistrallar üzərində əlaqəyə həvəsləndirib. Tərəflər hesab edirlər ki, təhlükəsiz dəmir yolu marşrutunun yaradılması qarşılıqlı maraqları tam əks etdirir.

Qeyd edək ki, "Turistik Doğu Ekspres" xətti ötən ilin mayında istifadəyə verilib.

## Azərbaycanın mobil rezidentliyinin əhatə dairəsi genişlənir

Rəqəmsal Ticarət Qovşağının təqdim etdiyi mobil-rezidentlik vasitəsilə türkiyəli iş adamı Koral Türkkan Azərbaycanda biznes fəliyyətinə başlayacaq.

Qeyd edək ki, Türkiyə vətəndaşı Koral Türkkan Azərbaycanın investisiya mühitini araşdıraraq ölkədə əlverişli biznes şəraitinin mövcudluğu səbəbindən yeni biznes yaratmaq məqsədilə Rəqəmsal Ticarət Qovşağına müraciət etmişdi. Rəqəmsal Ticarət Qovşağının meneceri Nicat Əsədli bildirir ki, qısa müddətdə mobil rezidentlik əldə edən Koral bəy ikinci mərhələdə Azərbaycanda informasiya kommunikasiya texnologiyaları sahəsi üzrə fəaliyyətə başlamaq üçün hüquqi şəxsin qeydiyyatını və korporativ bank hesabının açılmasını onlayn olaraq həyata keçirəcək.

Mobil rezidentlik əldə edən Türkiyə vətəndaşı Koral Türkkan prosesin çox sürətli və rahat olduğunu, ətrafındakı iş adamlarına da bu proqrama qoşulmağı tövsiyə edəcəyini bildirib.

## "2020 İxraca dəstək" layihəsinə başlanılıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi və "My Broker" şirkətinin təşkilatçılığı ilə "2020 İxraca Dəstək" layihəsi çərçivəsində üç hissəli ödənişsiz maarifləndirici təlimlərə start verilib.

Layihə üzrə təşkil olunacaq təlimlər, yerli istehsalın xarici bazarlara çıxarılmasının stimullaşdırılması və asanlaşdırılması üzrə "İxrac elektron gömrük bəyannaməsinn doldurulması qaydaları", "İxrac əməliyyatında beynəlxalq daşınmanın hansı addımlarla həyata keçirilməsi", "İxrac gömrük əməliyyatının rəsmiləşdirilməsinin həyata keçirilməsi prosesi" mövzularını əhatə edəcək.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin rəhbəri Nicat Hacızadə bildirib ki, İİTKM-də "My Broker" gömrük təmsilçiliyinin mütəxəssisləri tərəfindən təlimlərin keçirilməsinin məqsədi Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər xarici ticarət əməliyyatları və gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində aparılan mühüm və əhəmiyyətli islahatları sahibkarlara daha detallı çatdırmaqdır. O qeyd edib ki, Azərbaycan ixracatçılarının bilik və bacarıqlarının artırılmasına ehtiyac var.

Fevralın 14-dək mərhələli davam edəcək təlimlərin hər birinin fəal iştirakçısı olan 50 sahibkara sertifikatlar veriləcək.

Layihə üzrə İTKM-nin "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi və "My Broker" gömrük təmsilçiliyi tərəfindən Azərbaycanda sahibkarlığın inkişafı, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə ixrac və idxal əməliyyatlarında sahibkarların maarifləndirilməsi üçün ehtiyac duyulan daha bir neçə maarifləndirici təlimin təşkil edilməsi nəzərdə tutulur.

## Bu il 200 mindən çox şəxsin məşğulluğuna dəstək veriləcək

"Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq orqanları tərəfindən bu il işlə təmin olunanların sayının 30 faiz artırılmaqla 130 minə çatdırılması, peşə hazırlığına cəlb edilənlərin sayının 40 faizdən çox artırılmaqla 5 minə çatdırılması nəzərdə tutulur".

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev KİV-ə müsahibəsində deyib. Nazir bildirib ki, bununla bərabər, 2020-ci ildə özünüməşğulluq proqramının əhatə dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulub. Bu sahədə Dünya Bankı ilə əməkdaşlıq həyata keçiriləcək.

S.Babayev deyib ki, ödənişli ictimai işlərlə təminat proqramı da genişlənəcək. Ümumilikdə bu il 12 minədək ailənin özünüməşğulluq proqramına, 64 min nəfərin də ödənişli ictimai işlərə cəlb edilməsi təmin olunacaq.

Beləliklə, builki hədəf nazirliyin məşğulluq orqanları tərəfindən 200 mindən çox şəxsin məşğulluğuna dəstək göstərməkdir.

## TANAP Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm rol oynayacaq

"TANAP layihəsi Avropa İttifaqının qaz təminatının şaxələndirilməsi ilə yanaşı, enerji təchizatının təhlükəsizliyində mühüm rol oynayacaq".

Bunu KİV-ə açıqlamasında "Gürcüstan Neft-Qaz Korporasiyası"nın (GOGC) baş direktoru Georgi Baxtadze söyləyib. Onun sözlərinə görə, Gürcüstan təbii qazın tranziti baxımından regional əhəmiyyətə malikdir. Bu gün Azərbaycan qazı Türkiyəyə məhz Gürcüstan ərazisindən daşınır. TANAP-ın işə düşməsindən sonra Gürcüstan qaz tranzitinə görə beynəlxalq əhəmiyyətə malik olub.

G.Baxtadze deyib: "TANAP istismara verilənədək Gürcüstan "Şahdəniz" yatağından ən çox 330 milyon kubmetr qaz alırdı. Cənubi Qafqaz Boru Kəməri işə başladıqdan sonra bu rəqəm tədricən artacaq və 2024-2026-cı illərdə 22 milyard kubmetrə çatacaq. Bu da Gürcüstana 1,1 milyard kubmetrə qədər təbii qazı daha aşağı qiymətə almağa imkan verəcək".

## Xəzərdə geoloji kəşfiyyat davam edir



bp Azərbaycan şirkətinin 2019-cu ilə aid hesabatında Xəzərdə aparılan geoloji kəşfiyyat işlərinin vəziyyəti barədə də məlumat verilir.

2020-ci il yanvarın 13-də "Şəfəq-Asiman" dəniz blokunda ilk kəşfiyyat quyusunun qazılmasına başlanıb. Quyunun doqquz aya qazılacağı planlaşdırılır. Bundan sonra əldə edilmiş məlumatlar təhlil olunacaq və əgər uğurlu olarsa, nəticələri təsdiq etmək üçün qiymətləndirmə proqramı da həyata keçirilə bilər.

D230 blokunda 2019-cu ilin dekabr ayında üçölçülü seysmik tədqiqat proqramına başlanmışdır və hazırda davam edir. Bu işlərin 2020-ci ilin birinci yarısında sona çatacağı planlaşdırılır. Bunun ardınca əldə edilmiş məlumatların emalı və interpretasiyası aparılacaq və nəticələrdən asılı olaraq ilk kəşfiyyat quyusunun planlaşdırılmasına da 2020-ci ildə başlanacaq.

Abşeron yarımadasının dayazsulu hissəsi üzrə hasilatın pay bölgüsü sazişi ərazisində seçilmiş yerdə ilk kəşfiyyat quyusunun qazılması işlərinin planlaşdırılması davam edir. Quyunun qazılmasına bu məqsədlə seçilmiş qazma qurğusu üzərində hazırda aparılan işlər yekunlaşdıqdan sonra 2020-ci ilin sonlarında başlanması nəzərdə tutulur.

## 1 milyon 120 min nəfərin pensiyası artırıldı

**Bu, dövlətin həm iqtisadi gücünü, həm də siyasətinin mərkəzində vətəndaşın maraqlarının dayandığını bir daha təsdiq edir**






Əvvəli 1-ci səh.

Nazir, həmçinin deyib ki, işləyən əhalinin fərdi hesablarındakı pensiya kapitalı da Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata uyğun olaraq istehlak qiymətləri indeksinin 2019-cu il üzrə illik səviyyəsinə uyğun səviyyədə indeksləşdirilməklə yanvarın 1-dən 2,6 faiz artırılacaq. Bu da gələcəkdə təyin olunacaq pensiyaların məbləğinin artımına əsas yaradır.

2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı sosial sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter daşıdığını vurğulayaraq demişdir: "Keçən il aparılmış islahatlar nəticəsində biz əldə edilmiş əlavə gəlirləri, ilk növbədə, məhz sosial sahəyə yönəltdik. Mən keçən ilin əvvəlində bunu bəyan etmişdim. Demişdim ki, yığılacaq bütün əlavə vəsait sosial sahəyə yönəldiləcəkdir və bunu da etdik. Hər zaman olduğu kimi, sözümüzün üstündə dururuq. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması bizim üçün prioritet məsələ olaraq qalır".

Budəfəki artımdan sonra orta aylıq pensiya məbləği 262 manatdan 300 manatadək yüksəlir. Bu da dövlətimizin maddi imkanlarının dinamik şəkildə artdığını göstərməklə bərabər, həm də ölkəmizdə aparılan sosial siyasətin bir qolu kimi pensiya təminatının da getdikcə yaxşılaşdırıldığını təsdiq edir. Yeri gəlmişkən, onu da qeyd edək ki, pensiya sahəsində aparılan islahatlar nəticəsində keçən il minimum pensiyaların artımı bizi MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci yerə çıxardı. Xüsusi şərtlərlə pensiya təyinatı olan hərbçiləri əhatə edən böyük bir kontingentdə 30 faizlik artım oldu. Bu islahatların nəticəsində 2019-cu ildə orta pensiya 15 faiz artdı. Yaşa görə pensiyada da bu qədər artım oldu. Ən həssas kateqoriya olan əlilliyə görə pensiyada artım 22 faiz təşkil etdi.

Görülən ardıcıl tədbirlər bir daha göstərir ki, dövlətin siyasətinin mərkəzində vətəndaşın maraqları dayanır. İstər iqtisadi inkişaf nəticəsində yeni iş yerlərinin açılması və bununla yanaşı, əməkhaqqının yüksəldilməsi, istərsə də pensiyaların, müavinətlərin artırılması, ünvanlı sosial yardımın tətbiqi bu məqsədə xidmət edir.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev demişdir: "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəldilməlidir və biz bunu edirik. Ona görə sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizin gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır".

***Flora SADIQLI, "Azərbaycan"***






# TURİZM






● Müasir infrastruktur



# Turistlərin ən çox üz tutduğu məkan

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda demişdir: "...mən turizmi də ixrac növü hesab edirəm. Çünki keçən il xarici turistlər Azərbaycanda 4,3 milyard manat pul xərcləyiblər. Yəni əgər bunu ixrac növü kimi hesablasaq, neftdən sonra ikinci sahə turizmdir. Məhz ona görə mən turizmin inkişafını təmin etdim. Son illər Azərbaycanda turistlərin sayı artıb və bu gün də artır. Əminəm ki, bu, belə də davam edəcək".**

Həqiqətən də bu gün müstəqil və müasir Azərbaycanda səyahətçilər üçün dünya standartları səviyyəsində lazımi şərait yaradılıb. Müasir nəqliyyat strukturu - göz oxşayan beşulduzlu Heydər Əliyev Beynəlxalq Aeroportu, eləcə də turistlərin daha çox gəldikləri bölgələrdə 5 beynəlxalq aeroport onların xidmətindədir. Paytaxt Bakıdan tutmuş bölgələrədək bir-birindən gözəl və rahat hotellər var. Deməк olar ki, ölkəmizdə dünyanın bütün aparıcı hotellərinin brendləri fəaliyyət göstərir. Əsas məsələ odur ki, ölkəmizdə sabitlik var və gələn turistlərin təhlükəsizliyinə, səmərəli istirahətinə və gəzintisinə ciddi təminat var. Bütün bunlara görədir ki, Azərbaycana istirahətə və gəzintiyə gələnlərin sayı ildən-ilə artmaqdadır. Qürurla deyə bilərik ki, indi MDB məkanında turistlərin daha çox üz tutduğu 10 ən yaxşı dağ-xizək kurortu sırasında Azərbaycanın "Şahdağ" və "Tufandağ" kimi kurort məkanlarının da adı çəkilir. Bu reytinq MDB məkanının qış kurortlarında turların və istirahət təkliflərinin nəticələrinə əsasən müəyyən edilib. Rusiyanın "TurStat" turizm portalı rusiyalı turistlər üçün MDB-də müəllif turlarının ən populyar istiqamətlərinin siyahısını təqdim edərkən bu siyahıya Azərbaycandan Bakı, Qobustan, Şəki və Qəbələ də daxil edilib.




Təbii ki, turizm sənayesinin çoxşaxəli olması, istirahətin təşkili üçün normal şəraitin mövcudluğu onların seçimində əsas amillərdir. Son illər ölkəmizdə bu sahənin inkişafı üçün Xəzərətrafı ərazilərdə və bölgələrdə sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərin inkişafına xüsusi diqqət yetirilib. Dövlət başçısının məqsədyönlü və balanslı xarici siyasəti, habelə uğurlu daxili siyasəti nəticəsində turistlər üçün Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkə hesab edilir. Ölkəmizdə ilboyu turizm xidmətlərinin təqdim olunması və turistlərin qalma müddətinin uzadılması qış turizminin inkişafına, eləcə də turistlərin təkrar bu yerlərə dönməsinə böyük təsir göstərir. Bu amil müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricilərdəndir. Təsadüfi deyil ki, dünyada olan 11 iqlim qurşağından 9-u Azərbaycandadır. Ölkəmizin tarixi mədəniyyət abidələri sırasında Qız qalası, Şirvanşahlar sarayı, Qobustan qayaları, Beşbarmaq dağı, Şəki xan sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Talış dağları və s. bu kimi ünvanlar turistlər üçün çox maraqlı olan məkanlardır.

Ölkəmizdə mövcud olan turizm imkanları dünyanın müxtəlif mətbu orqanlarının diqqətini cəlb edib. Küveytdə böyük oxucu auditoriyasına malik ərəb dilində nəşr olunan gündəlik "Əl-Qabas" qəzetində "Lonely Planet" saytına istinadən "2020-ci ildə dünyada istirahət üçün 10 ən gözəl yer" sərlövhəli məlumat dərc olunub. Məlumatda "Lonely Planet"in 15-ci təsnifatında 2020-ci ildə turistlərin sərfəli qiymətlər və gözəllik baxımından səfər edəcəkləri dünyanın 10 ən gözəl şəhərləri arasında paytaxtımız Bakı şəhəri 5-ci yerdə qeyd olunub. Məlumatda neft və qazla zəngin olan ölkəmizə turistlərin səfəri zamanı bənzərsiz təcrübə təqdim edən unikal bir təyinatın, eyni zamanda ucuz qiymətə yüksək səviyyədə yaşayışın şahidi olacaqları və ləziz yeməklər yeyəcəkləri qeyd edilib. Həmçinin Bakı şəhərinə səfər zamanı orada bir neçə mühüm tarixi yerləri ziyarət etmək imkanlarının olacağı bildirilib.

İtaliyanın "Termometro Quoditiano" saytı Azərbaycanı 2020-ci ildə "Yenidən kəşf ediləsi ölkə" adlandırıb. "Lonely planet" turizm jurnalının məqaləsində ölkəmiz 2020-ci ildə gəzməli-görməli ölkələr siyahısına daxil edilib. Bunun əsasında yazı dərc edən İtaliya portalı Azərbaycanı "zərdüştlüyün yaşayan mədəni mərkəzi, müasir və qədim arxitekturanın vəhdəti, xarakterik Xəzər dənizi, keçmişi və gələcəyi özündə birləşdirən ölkə" kimi təqdim edərək, ölkəmizin hər kəsə maraqlı olacağına əminlik yaradaraq səyahət həvəskarlarına ölkəmizə gəlməyi məsləhət görür.

Dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn qonaqlar yüksək səviyyədə qurulmuş turizm obyektlərində istirahət edərək buranın təbiətinə valeh olurlar. Belə məkanlar sırasında Qəbələnin də öz yeri var. Son dövrlər aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən sosial-iqtisadi layihələr Qəbələni daha da füsunkar etməklə insanların güzəranlarını da xeyli yaxşılaşdırıb, turizm obyektlərinin sayı artıb. Ölkənin turizm-istirahət mərkəzləri dağ, çay, meşə zolaqları ilə əhatə olunur. Hər bir obyektdə istirahət üçün gözəl şərait yaradılıb. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, buz üstdə konki meydançası, alpinizm məşğələləri hər bir turisti maraqlandırır. Qonaqlar Qəbələnin adət-ənənələri, milli mətbəxi, mədəniyyət və tarixi, təbiəti ilə bağlı məlumat əldə edir, istirahətləri yüksək səviyyədə təşkil olunur. Statistika göstərir ki, öz məzuniyyətini Qəbələdə keçirən turistlərin sayında ilbəil artım müşahidə olunur.

Oğuz da turizm məkanı kimi məşhurdur. Son illər bu rayonda turizmin inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Rayonun turizm mərkəzinə çevrilməsi üçün lazımi infrastruktur yaradılıb. Yenidənqurma işləri bu gün də davam etdirilir. Şimaldan Rusiya ilə həmsərhəd olan rayonu gözəlliyinə görə "Azərbaycanın İsveçrəsi" adlandırırlar. Ərazisinin az qala yarısı meşələrlə örtülüdür. Burada çoxlu şəlalə, kükürdlü və termal su bulaqları var. Ərazidə qədim tarix və memarlıq abidələri mövcuddur.

Ölkəmizdə turizmin mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaradılmışdır. Həyata keçirilən layihələr qış turizminin inkişafına yeni yollar açmışdır. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara nəticələnmişdir. Ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır. Bu günlərdə "TurStat" turizm portalı MDB ölkələrində rusiyalı turistlərin istirahəti və səyahəti üçün ən populyar dağ-xizək kurortlarının reytinqini açıqlayarkən MDB-də dağ xizəklərində və snoubordlarda sürüşmək üçün ən yaxşı kurortların Qazaxıstan, Belarus, Azərbaycan və Qırğızıstanda yerləşdiyini qeyd edib.

Qazaxıstanın "Weproject.media" internet portalında isə ölkəmizin geniş turizm potensialından bəhs edən "Qədim sivilizasiyaların izləri, nadir təbiət hadisələri və zəngin mətbəxi ilə tanış olmaq üçün Azərbaycana səfər etmək lazımdır" adlı məqalə yer alıb. Yazıda respublikamızın görməli yerləri, mətbəxi, təbiəti, turizmi və mədəniyyəti, eləcə də tarixi haqqında oxuculara ətraflı məlumat verilib. Daha sonra müəllif Azərbaycanı nadir Qarabağ atlarının vətəni olduğunu, ölkə ərazisində doqquz iqlim qurşağının mövcudluğunu, möcüzəli "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun, dünyadakı palçıq vulkanlarının demək olar ki, yarısının Azərbaycanda olduğunu da səyahətsevərlərin diqqətinə çatdırır, Qobustan qayaüstü rəsmlərinin UNESKO tərəfindən Dünya İrs Siyahısına daxil edildiyini qeyd edib, hər kəsə bu gözəl məkanda istirahət etməyi və gəzməyi məsləhət görüb.

*Rəhman SALMANLI, "Azərbaycan"*

● Sağlamlıq mərkəzləri

# Son bir ildə Naftalana 40 min turist gəlmişdir

**Son illər ölkəmizdə reallaşan qlobal layihələr, həyata keçirilən beynəlxalq tədbirlər, sabitlik və əmin-amanlıq respublikamızın digər bölgələrində olduğu kimi, Naftalanda da turizmin inkişafına geniş yol açmışdır. Nəticədə təkcə keçən il istər yerli, istərsə də xarici turistlərin sayında nəzərəçarpacaq dərəcədə artım qeydə alınmışdır.**

Son bir ildə Naftalan 40 mindən artıq turisti qəbul etmişdir. Onların yarıdan çoxu 61 ölkə vətəndaşı olmuşdur. Əsasən Rusiyadan, Qazaxıstandan, İsraildən, Ukraynadan, Belarusdan, Türkiyədən, Səudiyyə Ərəbistanından, Küveytdən, Litvadan, Birləşmiş Ərəb Əmirliklərindən, Tacikistandan, Qətərdən, İrandan, Çindən, Estoniyadan, Almaniyadan, Gürcüstandan, Qırğızıstandan, Kanadadan, hətta Amerika Birləşmiş Ştatlarından və digər ölkələrdən olan turistlər öz sağlamlıqlarını Naftalanda bərpa etmişlər. Turistlərin qəbulunda isə heç bir problem yaşanmamışdır. Belə ki, hazırda burada 11 turizm obyekti fəaliyyət göstərir. Eyni vaxtda burada 2500 turistin dincəlməsi üçün yüksək şərait yaradılmışdır. Lakin mövcud müalicə ocaqlarının sayı heç də tələbatı ödəmir. Odur ki, hazırda burada bir neçə sağlamlıq mərkəzinin tikintisi də aparılır. Onlar istifadəyə verildikdən sonra Naftalanın bir gündə 4000 nəfərə yaxın turisti qəbul etməyə imkanı olacaqdır. Şəhərin Nizami Gəncəvi küçəsində yerləşən 4 mərtəbəli 288 yerlik "Gold Naftalan" sağlamlıq mərkəzində hazırda son tamamlama işləri görülür.



Həmin küçədə daha bir sanatoriya kompleksinin inşası da sürətlə davam etdirilir. 192 yerlik olacaq bu kompleksdə idman zalı, masaj və həkim otaqları yaradılacaqdır.

3-cü sanatoriya isə şəhərin R.Zülfiqarov küçəsində tikilir. Yeni sağlamlıq kompleksi beşmərtəbəli olacaqdır. 176 yerlik kompleksdə poliklinika korpusu, texniki və yardımçı, eləcə də müalicə otaqları fəaliyyət göstərəcəkdir.

Şəhərə gəlmək istəyən bütün turistlərə diqqət və qayğı ilə yanaşılır. Xüsusilə xarici qonaqların Naftalana gəlməsini asanlaşdırmaq məqsədilə bu yaxınlarda Goran-Naftalan marşrutu üzrə yeni avtobus xətti açılmış və həmin marşrutda işləmək üçün "Toyota" markalı sərnişin avtobusu ayrılmışdır. Bundan başqa, Bakı-Gəncə-Bakı istiqamətində fəaliyyət göstərən sürət qatarının Goran stansiyasında dayanması da turistlərin məmnunluğuna səbəb olmuşdur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

● Xəbər

# Regionun ən böyük səyahət bazarına maraq artır

**Azərbaycan Dövlət Turizm Agentliyindən aldığımız məlumatda bildirilir ki, Bakıda keçiriləcək "Travel Businness Azerbaijan - 2020" tədbirində iştirak etmək üçün turizm və qonaqpərvərlik sahəsində fəaliyyət göstərən 200-dən çox yerli və xarici şirkət qeydiyyata alınıb.**

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ilk dəfə keçiriləcək bu tədbirə Yaxın Şərq və Avropa ölkələri, Rusiya, Qazaxıstan, Ukrayna, Hindistan, Pakistan, Yaponiya və Koreya daxil olmaqla dünyanın 50 ölkəsindən 1000-dən çox iştirakçının qatılacağı gözlənilir.

Tədbirin keçirilməsində məqsəd turizm sahəsində fəaliyyət göstərən yerli şirkətlərlə xarici turizm şirkətləri arasında tərəfdaşlıq münasibətlərinin və əməkdaşlıq imkanlarının yaradılmasına daha əlverişli şərait yaratmaqdır.

*"Azərbaycan"*

● Azərbaycan Turizm və Menecment Universiteti

# Beynəlxalq əlaqələr ildən-ilə genişlənir

**Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) ölkəmizin inkişafda olan turizm və digər sahələri üzrə dünya standartlarına uyğun yüksəkixtisaslı kadrlar hazırlanır. Bu gün universitetdə 3 fakültə və 10 kafedra fəaliyyət göstərir, bakalavr pilləsi üzrə 1758, magistratura üzrə 289, doktorantura pilləsi üzrə 72 nəfər təhsil alır. Ümumilikdə tədris prosesini 200-dən çox professor-müəllim heyəti həyata keçirir.**

ATMU fəaliyyətə başladığı ilk gündən xarici əlaqələrin genişlənməsinə və ali təhsildə beynəlmiləlləşməyə xüsusi diqqət yetirir. Universitetdə yaranmış ilk bölmələrdən biri Beynəlxalq əlaqələr şöbəsi olmuşdur. Keçən dövr ərzində ATMU Avropa Universitetlər Assosiasiyası, Avrasiya Universitetlərinin Beynəlxalq Assosiasiyası, Xidmət üzrə Rusiya Ali Məktəblərinin Milli Elm və Tədqiqat Konsorsiumu, Xəzəryanı Ölkələrin Dövlət Universitetlərinin Assosiasiyası, Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyası, Avrasiya İpək Yolu Universitetlərinin Konvensiyası (ESRUC) və Demokratiya Naminə Universitetlər İttifaqı (AUDEM) kimi nüfuzlu təhsil təşkilatlarına üzv olaraq fəaliyyət dairəsini daha da genişləndirmişdir.

ATMU Azərbaycanın təhsil tarixində ilk dəfə olaraq uğurla ikili diplom proqramını həyata keçirir. Avstriyanın İMC Krems Tətbiqi Elmlər Universiteti ilə imzalanmış akademik müqavilənin şərtlərinə əsasən tələbələr üç tədris ili ərzində "Turizm və asudə vaxt menecmenti proqramı" üzrə ingilis dilində təhsil alırlar. Ötən il aprelin 5-də Dövlət Turizm Agentliyinin dəstəyi ilə ATMU və İMC Krems Tətbiqi Elmlər Universiteti ilə AATP Azərbaycan-Avstriya Turizm proqramı üzrə yeni əməkdaşlıq müqaviləsi hazırlanmışdır. Bu proqrama əsasən 210 nəfər məzun hər iki ali təhsil müəssisəsinin diplomunu almışdır. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin görüşü zamanı universitetlər arasında magistratura səviyyəsində tədrisin təşkilini nəzərdə tutan əməkdaşlıq sazişi imzalanmışdır. Bundan sonra ATMU yalnız bakalavr təhsil pilləsi üzrə kadr hazırlığı ilə kifayətlənməyərək həmin universitetlə birlikdə magistr pilləsi səviyyəsində də təhsilə başlamışdır.




Universitetimiz Xəzər Universiteti və Gəncə Dövlət Universiteti ilə birgə Avropa İttifaqının Erasmus-Mundus Xarici Əməkdaşlıq Pəncərə Proqramının (EU Erasmus Mundus External Cooperation Window) qalibi olmuşdur. Üç mərhələdə həyata keçirilmiş proqram çərçivəsində ATMU-nun tələbə və əməkdaşları Yunanıstan, Portuqaliya, Böyük Britaniya, İtaliya, Latviya, Fransa, Bolqarıstanın ali təhsil müəssisələrində ixtisasartırma və təcrübə mübadiləsi layihələrində iştirak etmişlər. Qeyd olunan proqram çərçivəsində xeyli sayda tələbə təhsilini davam etdirmək, habelə bir sıra müəllim və inzibati işçi müxtəlif Avropa universitetlərinə tədqiqat üçün göndərilmişdir.

ATMU-nun genişmiqyaslı əlaqələrində önəmli yerlərdən birini də beynəlxalq tələbə proqramlarında fəal iştirak tutur. ATMU Avropa Birliyinin Erasmus+ proqramı çərçivəsində Avropada fəaliyyət göstərən müxtəlif universitetlər ilə əlaqələr quraraq xeyli sayda tərəfdaşlar qazanmış, bu əməkdaşlıqlar çərçivəsində öz tədris planımızı daha da inkişaf etdirə bilmişik. Adıçəkilən beynəlxalq proqram çərçivəsində tələbələrimiz İspaniya Krallığının Valladolid və Jirona Universitetlərində, Finlandiya Respublikasının Kajaani Tətbiqi Elmlər Universitetində, Rumıniya Respublikasının İoan Cusa Alexander Universitetində, Bolqarıstan Respublikasının D.A.Tsenov adına İqtisadiyyat Akademiyasında, Türkiyə Respublikasının Orta Doğu Texniki və Əskişəhər Anadolu universitetlərində müxtəlif ixtisaslar üzrə tələbə mübadiləsinin iştirakçısı olmuşlar. Bununla yanaşı, müəllim mübadiləsi imkanlarından istifadə beynəlxalq proqram çərçivəsində universitetin qarşısına qoyduğu əsas istiqamətlərdən biri olmuşdur. Son illər xeyli sayda müəllim mübadiləsi ATMU və proqram daxilində əməkdaşlıq edən tərəfdaş universitetlər arasında həyata keçirilmişdir. Ümumilikdə son 4 il ərzində 20-dən çox tələbəmiz, Erasmus+ proqramı çərçivəsində tərəfdaş universitetlərdə təhsil almış 10 nəfərdən çox müəllim bu proqram vasitəsilə tərəfdaş universitetlərdə mühazirə və seminarlar aparmışdır.

Beynəlxalq tələbə mübadiləsi proqramları çərçivəsində önəm verilən istiqamətlərdən biri də Türkiyə Respublikası hökuməti tərəfindən formalaşdırılan Mövlanə Mübadilə proqramıdır. Son illər bu proqrama qoşularaq Türkiyə Respublikasının müxtəlif şəhərlərindəki ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri qurmuşuq. Məhz bu səylərin nəticəsində Mövlanə Mübadilə proqramı çərçivəsində Qazi Universiteti (Ankara), Ağdəniz Universiteti (Antalya), Ege Universiteti (İzmir), Sakarya Universiteti (Sakarya), Kastamonu Universiteti (Kastamonu), İstanbul Universiteti və Ankara Universiteti kimi nüfuzlu ali təhsil müəssisələri ilə tərəfdaşlıq müqavilələri imzalanmışdır. Müqaviləyə əsasən, son 4 ildə 25 nəfərdən çox tələbəmiz beynəlxalq təhsil proqramının imkanlarından yararlana bilmişdir. Proqram çərçivəsində fərqli ixtisaslar üzrə tərəfdaş universitetlərin professor-müəllimləri ATMU-da müxtəlif vaxtlarda mühazirə və seminarlar aparmışlar. Eyni tədris imkanlarından istifadə ATMU-nun müəllim heyəti üçün də mümkün olmuşdur. Hazırda məlum beynəlxalq təhsil proqramı çərçivəsində yeni universitetlər ilə əməkdaşlıqların qurulması istiqamətində işlər davam etdirilir.

ATMU Almaniyanın Yade Tətbiqi Elmlər Universiteti ilə də əməkdaşlıq əlaqələri yarada bilmişdir. Məhz hər iki universitet arasında mövcud olan əməkdaşlıq əsasında tələbələrimiz Almaniyada təşkil olunan yay dil kurslarında iştirak edir, habelə tələbə həmrəyliyi çərçivəsində Yade Universitetində bir semestrlik təhsil ala bilirlər. Bu il həmin ali təhsil müəssisəsi ilə yeni hədəf olaraq 1, yaxud 2 ixtisas üzrə ikili diplom layihəsinin həyata keçirilməsi müzakirə ediləcək.

Universitetdə təhsilin beynəlxalq standartlara uyğunluğunu təmin etmək məqsədilə xarici mütəxəssislərin tədris prosesinə cəlb edilməsi istiqamətində addımlar atılır. Erasmus-Mundus Xarici Əməkdaşlıq Proqramı xətti ilə Portuqaliyadan 2 nəfər, ABŞ hökumətinin təqaüd proqramları ilə 2 nəfər, Almaniyanın Robert Boş Fondu, Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) və Almaniyanın CİM təşkilatları ilə əməkdaşlıq nəticəsində Almaniyadan hər il bir nəfər müəllim universitetdə tədris prosesinə cəlb olunmuşdur.

ATMU həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Almaniyanın DAAD, Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (İAEA), BMTİP (UNDP) və sair bu kimi beynəlxalq təşkilatlarla da müxtəlif istiqamətlər üzrə əməkdaşlıq əlaqələri qurmuşdur. Universitet Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə həyata keçirilən "Elektron təhsildə Cənubi Qafqazda institusional quruculuq və insan resurslarının inkişafı" layihəsinin iştirakçılarından biri olmuş və distant təhsil üzrə müəllimlərin bacarıqlarını inkişaf etdirməyə səy göstərmişdir.

2011-ci ildən ATMU Ümumdünya Turizm Təşkilatının "qoşulmuş üzvü" (Affiliate member), bir müddət sonra isə "Bilik" Şəbəkəsinin üzvü seçilmişdir. Ümumdünya Turizm Təşkilatına üzvlük ATMU-nun dünya turizm sənayesinə çıxışı üçün daha geniş imkanlar açmış, eləcə də tələbələrimizə daha böyük kürsülərdən ölkəmizi və universitetimizi təmsil etmək şansı qazandırmışdır.

ATMU tələbələr üçün 14 həftəlik xaricdə istehsalat təcrübə semestri təşkil edir. Azərbaycanda fəaliyyət göstərən müxtəlif xarici ölkə səfirliklərinin və beynəlxalq turizm təşkilatlarının dəstəyi ilə ATMU tələbələri Türkiyədə, Bolqarıstanda, İsraildə, Yunanıstanda və s. ölkələrdə istehsalat təcrübəsi keçə bilmək imkanlarından yararlanırlar. Təkcə 2019-cu il ərzində 80 nəfərə yaxın tələbəmiz bir sıra xarici ölkələrdə istehsalat təcrübəsi keçmişdir. Gələn ildən etibarən tələbələrimiz Almaniya Federativ Respublikası, Qatar Dövləti və s. kimi yeni turizm destinasiyalarında təşkil olunacaq istehsalat təcrübəsində iştirak edəcəklər.

Avropada mövcud olan müxtəlif ali təhsil müəssisələri ilə ikili diplom layihələrinin daha da gücləndirilməsi, tələbə və müəllimlərimizin dünyanın nüfuzlu ali məktəblərində elmi konfrans və təlimlərdə mütəmadi iştirakı, tədrisin keyfiyyətinin daha da təkmilləşdirilməsi, habelə beynəlxalq əlaqələrimizin davamlı inkişafı diqqətimizdədir.

Sürətlə inkişaf edən, qloballaşan dünyanın turizm və təhsil sahələrində baş verən dəyişikliklərə tez uyğunlaşa bilmək, eləcə də dövlətimiz və hökumətimiz tərəfindən istər turizm, istərsə də təhsil sahəsində aparılan uğurlu islahatlara əsaslanaraq ATMU beynəlmiləlləşməyə çox böyük önəm verir və beynəlxalq əlaqələrini ildən-ilə genişləndirir.

*İlham MƏDƏTOV, Azərbaycan Turizm və Menecment Universitetinin rektoru*



# Ermənilərin Bakıda törətdikləri fevral qırğınları

## O faciəli günlərdən 115 il ötür

1905-ci il fevralın 6-sı... Bakının mərkəzindəki erməni kilsəsində ibadət bitir. Kilsədən çıxanlar uzağa getmirlər. Bu vaxt atəş açılır. Səsə gələn polisə bir neçə erməninin azərbaycanlı Ağarza Babayevi guya erməni əsgərinə atəş açdığına görə tutub polisə vermək istədiyini deyirlər. Polis protokol tərtib etmək üçün onu polis məntəqəsinə aparır. Ancaq ermənilər onları aparan faytonun uzaqlaşmasına imkan vermirlər, Ağarza Babayevi atəşə tuturlar. O, faytondan düşüb qaçmağa başlayır. "Parapet"də özlərini Ağarzaya çatdıran ermənilər onu qətlə yetirir və aradan çıxırlar. Çox keçmədən azərbaycanlılar Tatarski (indiki Əlimərdan bəy Topçubaşov) küçəsində bir ermənini öldürürlər. Bir neçə saat sonra atəş səsləri bütün şəhəri bürüyür... Bunlar hansısa filmin kadrları deyil, Azərbaycan tarixinin faciə dolu səhifələrindən biridir.



### Yaxşılığa yamanlıq...

Ermənilərin xisləti belədir. Məskunlaşdıqları özgə torpaqlarında özlərini mülayim, işgüzar, sözəbaxan göstərirlər. Elə ki, dövranın gərdişi dönür, məkrli niyyətlərini bəlli edirlər, onlara yurdunda yer verənlərin, əl tutanların humanistliyinə qəddarlıqla, ədalətsizliklə cavab verirlər.

1905-ci ildə ermənilər iğtişaş, inqilab ab-havasını duyub gizli planlarını reallaşdırmaq üçün hərəkətə keçirlər. "Daşnaksütyun" təşkilatının üzvləri xüsusilə fəallaşırlar. Bu dəfə hədəflərində yalnız Osmanlı imperiyası yox, Çar Rusiyasının müstəmləkəsinə çevirdiyi bir sıra yerlər, əsasən, Azərbaycan torpaqları da vardı.

Ölkəmizin əksər bölgələri kimi Bakımıza da ermənilər sonradan gəlmişdilər. Bu fakt 1905-ci il fevralın əvvəllərində Bakı şəhəri və quberniyasında baş verən ilk erməni-azərbaycanlı qırğınını təhqiq edən senator Kuzminskinin hesabatında öz əksini tapıb. O yazırdı: "Müsəlmanlar Bakı şəhərinin aborigen sakinləri, ermənilər isə buraya sonradan, xüsusilə neft sənayesinin intensiv inkişafından, yəni təxminən 1870-ci illərin əvvəllərindən gəlməyə başlamışlar. Onların kütləvi axını isə son 10-15 il ərzində xüsusilə artmışdır və hazırda onlar şəhər əhalisinin 18 faizini təşkil edirlər". Bakıya üz tutan ermənilərin burada tezliklə neft sənayesi, ticarət və bank işində iri kapitalistlərə çevrildiklərini də Kuzminski hesabatında qeyd edirdi.

1905-ci il fevralın 6-9-da baş vermiş hadisələr zamanı şəhərdə dükanlar, məktəblər, klublar bağlandı, fayton və konkalar işləmədi. Bakı qubernatoru knyaz M.A.Nakaşidze həmin il fevralın 25-də Qafqaz canişini və Rusiya Daxili İşlər Nazirliyi üçün hazırladığı geniş məruzədə göstərirdi ki, fevralın 6-da gündüz saat 12-də şəhərin mərkəzində, erməni kilsəsinin yanında, "Parapet" deyilən yerdə varlı, nüfuzlu, şəhərdə çoxlu qohum-əqrəbası olan, Sabunçu kəndinin sakini və Bakıda yaşayan Ağarza Babayevi ermənilər qətlə yetirib. Müayinə edilərkən mərhumun bədənində odlu və soyuq silahların izi olub. Şəhərə onun meyitinin təhqir edildiyi, 200-ə yaxın yara vurulduğu barədə xəbərlər yayılıb. Ermənilərin bu qəddarlığı azərbaycanlıları sarsıdıb.

Şahidlərin ifadələri, ekspertiza rəyi nəticəsində hadisə zamanı Ağarza Babayevin tapançasından atəş açılmadığı sübuta yetirilib. Onu qanına qəltan edən erməni qatillər isə "tapılmayıb".

General M.Nakaşidze məruzəsində bildirirdi ki, fevralın 7-9-da Bakıda bu hadisələr zamanı tam olmayan məlumata görə, 231 nəfər ölüb, 179 nəfər yaralanıb. Məruzədə qeyd edilirdi ki, itki göstəriləndən çoxdur. Gizlədilən ölülərin əksəriyyəti isə müsəlmanların idi. Onlar ölülərini yarılmaması üçün gizlədirdilər.

Məruzədə fevralın 9-da qubernatorun iştiraki ilə azərbaycanlı və erməni nümayəndələrinin Bakı küçələrində sülh çağırışlarından sonra şəhərdə qırğının dayandırıldığı bildirilirdi. Qubernatorun məruzəsində ermənilərin çar hakimiyyət orqanları məmurlarını terrorla hədələyib özlərinə xidmətə cəlb etdikləri də açıqlanırdı.

### Erməni terrorunun qurbanları...

1905-ci il mayın 11-də şəhərin mərkəzində erməni terrorçusu Dron atdığı bomba ilə qubernator M.Nakaşidzenin həyatına son qoydu. "Hnçak" partiyası üzvlərinin yaydığı vərəqədə M.Nakaşidze və başqaları erməni xalqının qatilləri adlandırıldı, onların bu səbəbdən öldürüldükləri bildirildi.

M.Nakaşidze qətlə yetirildiyi gün vitse-qubernator P.A.Liliyev Bakının müvəqqəti general-qubernatoruna məktubunda Bakı qubernatoru vəzifəsinin icrasına başladığını yazırdı.

General-leytenant S.A.Fadeyev 1905-ci il avqustun əvvəllərində Bakının müvəqqəti general qubernatoru vəzifəsində knyaz İ.Amilaxorini əvəz etdi. Həmin il avqustun 20-dən Bakıda ikinci dəfə güclənən erməni-müsəlman qırğını sentyabrın ortalarınadək davam etdi. Bakı polismeysteri avqustun 28-də müvəqqəti Bakı general qubernatoruna raportunda yazırdı: "Hamıya məlumdur ki, artıq çoxdandır Qafqazda erməni xalqının separatçılıq hərəkəti məqsədilə erməni inqilab komitəsi fəaliyyət göstərir və bu hərəkata, əsasən, millətin ziyalıları və fəhlələri rəhbərlik edirlər. Onlar hökumət əleyhinə bəyannamələr buraxaraq, orada Qafqazdakı bütün xalqları hökumətə qarşı mübarizədə birləşməyə çağırırlar. Bu komitə hökumətə qarşı nümayişlərin, tətillərin, polisə və orduya qarşı silahlı müqavimətin təşkilatçısıdır. Bu cür hərəkatın qurbanları çoxlu yüksək rütbəli inzibati idarə işçiləri, Bakı qubernatoru knyaz Nakaşidze, Yelizavetpol vitse-qubernatoru, mülki müşavir Andreyev və bir çox başqaları olmuşlar".

Raportda qeyd olunduğu kimi, fevral hadisələrindən sonra azərbaycanlılarla ermənilər arasında gərginlik elə həddə çatdı ki, adi bəhanə belə, münaqişəni yenidən alovlandıra bilərdi. "Bəhanəni" isə ermənilər tezliklə yaratdılar. Polismeyster yazırdı ki, avqustun 20-də gündüz saat 5-də "Parapet"də erməni kilsəsinin yanında naməlum şəxs tərəfindən atəş açıldı. Bir neçə dəqiqədən sonra 4-cü polis sahəsi rayonunda balkonlardan, pəncərə və erməni evlərinin damlarından tüfəng və tapançalardan küçədən keçən müsəlmanlara güllə atıldı. Həmin yerə nisbətən uzaq küçələrdə də ermənilər azərbaycanlı məhəllələrinə, dükanlarına hücum edir, onları öldürür, dükanlarını talayırdılar.

### Sülh danışıqlarına əməl etməyən ermənilərin növbəti fitnəkarlığı

1905-ci il sentyabrın 10-da ermənilər və azərbaycanlılar arasında barışıq yaratmaq məqsədilə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov Bakıya gəldi. Onun rəhbərliyi ilə sentyabrın 14-də barışıq və sülh bərpa olundu. Həmin gün saat 12-də min nəfərdən çox azərbaycanlı və erməni qabaqcıl ziyalı və din xadimləri ilə barışıq üçün Duma meydanına getdilər.

1906-cı il fevralın 20-də Tiflisdə Qafqazın canişininin sarayında erməni-müsəlman münaqişəsini dayandırmaq, barışığa nail olmaq məqsədilə sülh konfransı keçirildi. Martın 7-dək davam edən konfransda müsəlman nümayəndələri Əhməd bəy Ağaoğlu (o vaxtlar Ağayev soyadı ilə tanınırdı), Əlimərdan bəy Topçubaşov, Ədil xan Ziyadxanov və başqaları Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçı, icraçısı olan "Daşnaksütyun"un əsl məqsədini, rəsmi hökumət dairələrinin isə bu təşkilatın əməllərinə göz yumduğunu sübuta yetirdilər. Danışıqlar erməni-müsəlman barışıq komissiyasının yaradılması ilə nəticələndi. Ancaq barışıq uzun sürmədi. Çox keçmədi ki, erməni silahlı dəstələri yenidən qırğınlara başladılar.

Soydaşlarının ən məşəqqətli günlərində böyük millətpərvər, ictimai-siyasi xadim Əhməd bəy Ağaoğlu "Difai" təşkilatını yaratdı. Təşkilatın üzvləri böyük cəsarətlə, fədakarlıqla erməni terrorunun qarşısının alınması uğrunda mübarizə apardılar.

Əslində, ermənilərin törətdikləri faciələrin əsas təşkilatçısının "Daşnaksütyun"un mərkəzi komitəsi olması çar hökumətinə yaxşı məlum idi. Müvəqqəti Bakı general qubernatoru dəftərxanasının məlumatında da bu məsələ vurğulanırdı. Erməni daşnaklarının qəddar əməllərinə çarizm müxtəlif səbəblərdən göz yumur, bununla da onlara meydan verirdi.

1905-ci il fevralın 6-da Bakıda bir azərbaycanlını ermənilərin amansızlıqla qətlə yetirmələri ilə başlanan, günlərlə şiddətlə davam edən erməni-müsəlman qırğınları çoxunun həyatına son qoydu. Ancaq bu torpağın sərvəti ilə varlanan erməni milyonçularının köməyinə arxalanan, Bakı nefti sayəsində bütün Cənubi Qafqazda böyük qüvvəyə çevriləcəklərinə, müsəlmanları silah gücünə qovub erməni dövləti yaradacaqlarına inanan daşnaklar arzularına çatmadılar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Mübariz İbrahimov hər bir gəncimizə örnəkdir

İsmayıllı Rayon Gənclər və İdman İdarəsi rayon təhsil şöbəsi ilə birgə Milli Qəhrəman Mübariz İbrahimovun doğum günü münasibətilə rayonun Mərkəzləşmiş Kitabxana Sisteminin Uşaq şöbəsinin akt zalında tədbir keçirib.

AZƏRTAC Gənclər və İdman Nazirliyinin saytına istinadla xəbər verir ki, tədbirdə Milli Qəhrəmanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, keçdiyi döyüş yolu və misilsiz qəhrəmanlıq şücaətini özündə əks etdirən film nümayiş etdirilib.

İsmayıllı Rayon Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov Mübariz İbrahimovun təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçərək Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini birinci həmlədə gözlənilmədən məhv etməsi, sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək, onlarla 5 saat təkbətək döyüşməsi və düşməni ağır itkilərə məruz qoyması haqqında ətraflı danışıb.



Tədbirdə, həmçinin RİH-nin əməkdaşı Namiq Kərimov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İsmayıllı şöbəsinin əməkdaşı, rayon təhsil şöbəsinin metodisti Rəna Mirzəliyeva çıxışlarında bildiriblər ki, şəhidlik zirvəsinə yüksələn Mübarizin Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu bu gün hər bir gənc üçün örnəkdir, nümunədir. Eyni zamanda Milli Qəhrəmanımız bir daha düşmənə sübut etdi ki, Azərbaycan xalqı, Azərbaycan gəncləri Vətən uğrunda canlarından keçməyə hazırdırlar. Bu, böyük qəhrəmanlıq, hünər, vətənpərvərlik nümunəsidir.

Sonda qeyd edilib ki, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətlər göstərmiş şəhid Mübariz İbrahimovun əziz xatirəsi heç vaxt unudulmayacaqdır.

# Faşist cəlladı

## Qaregin Njdeyə altımetrlik heykəl qoymaqla Ermənistan şovinizm siyasəti yürütdüyünü təsdiqləyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verərkən Ermənistanın təcavüzkar siyasətinə qarşı barışmaz mövqeyini bir daha ortaya qoydu. Belə ki, erməni cəlladlarından biri, satqın daşnak, terrorçuluğu dəstəkləmiş, casus Qaregin Njdeyə abidə qoyulması ilə bağlı fikirlərini növbəti dəfə geniş ictimaiyyətin diqqətinə çatdırdı.





Xatırladaq ki, Azərbaycan Prezidenti beynəlxalq tribunalardan Ermənistanın işğalçılıq siyasətini, təcavüzkar dövlət olduğunu, eləcə də terrorçu Q.Njdenin əsl simasını konkret faktlarla, həm də xarici mənbələrə əsaslanan faktlarla ifşa edir. Bu il MDB Dövlət Başçılarının Aşqabadda keçirilən Zirvə Görüşündə də bunun şahidinə çevrildik. Ermənistanın baş naziri Paşinyan isə həmin faktların qarşısında çox məzlum və aciz göründü.

Dövlətimizin başçısı onu da vurğuladı ki, bununla bağlı Azərbaycan ictimaiyyəti məsələni bir müddət öncə qaldırmışdı. Hətta, veteranlarımız MDB dövlət başçılarının ünvanına, eləcə də həmin ölkələrinin parlamentlərinə Ermənistanda faşist Njdeyə abidənin qoyulması ilə bağlı oxşar məzmunlu məktublar göndərmişdilər: "Bu gün MDB məkanında İkinci Dünya müharibəsi ilə bağlı prinsip etibarilə yekdil fikir var. Eyni zamanda rəsmi bəyanatlarda müharibənin tarixi nəticələri və Sovet İttifaqının qələbənin əldə edilməsində əsas rolu haqqında fikir ayrılığı yoxdur. Eyni zamanda faşistlərin qəhrəmanlaşdırılması ilə bağlı fikirlər də üst-üstə düşür. Belə olan halda, necə ola bilər ki, İrəvanda, şəhərin mərkəzində faşist cəlladı Njdeyə altı metrlik abidə ucaldılır və bu abidənin açılışında Ermənistanın prezidenti və bütün rəhbərlik iştirak edir. Bu, nə deməkdir?!"

### O, Njdedir, yoxsa Ter-Harutyunyan?

Ermənilərin Qaregin Njde adlı insan qəssabına İrəvanda heykəl qoyması, artıq beynəlxalq səviyyədə müzakirə mövzusuna çevrilib. Maraqlıdır, kimdir Njde?! Bu daşnak ideoloqunun kimliyi barədə son illərədək ciddi araşdırmalar aparılmasa da, bəzi mənbələrdə kifayət qədər, həm də dəhşətli faktlar var. Türkiyədə 2015-ci ildə çap olunmuş "Erməni düşüncə sistemi və ideolojiləri" kitabında (müəllifi Qafar Çaxmaqlıdır) bu erməni "qəhrəman"ı haqqında yazılanlardan məlum olur ki, o, sözün həqiqi mənasında, nəinki türklərin qənimi, əslində, müsəlmanların qanına susayan Zori Balayandan da qorxulu məxluq imiş. Njdenin iddiasına diqqət yetirin: "Mən Yer kürəsindəki ilahi izləri öz erməni soyumda oxudum, gördüm, opdüm, təzim etdim - Tsexakrona çevrildim".

Onun bu fikri ideoloji silah kimi daşnakların yaddaşına həkk olunub. Bu, həmin Njdedir ki, ömrü boyu türklərə qarşı vuruşub. Həyatını türkə və türkçülüyə zərbə vurmağa həsr edib: həm savaş meydanında, həm də ideoloji cəbhədə. Elə bir irqçi hərəkat və bir millətçi təlim yaradıb ki, ermənilər nəsilbənəsil davam etdirə bilsinlər. Təəssüf ki, adı və əməlləri Andronik Ozanyan qədər təbliğ olunmasa belə, təlimi erməni ideologiyasının türkçülüyə qarşı mübarizə qaynağıdır.

Maraqlıdır, onun yaratdığı "tsexakronizm" təliminin mahiyyəti nədən ibarətdir? Mənbədə göstərilir ki, "tsexakron" ermənicə iki sözün - "irq" və "din"in birləşməsidir. Qaregin Njde (bu daşnak adını da saxtalaşdırıb. Əsl adı Qaregin Ter-Harutyunyan olub) tərəfindən ortaya atılan bu hərəkata Tsexakron, onun ideoloji təliminə isə Tsexakronutyun (tsexakronizm) adı verilib. Ermənistan hazırda bu təlimə əsaslanaraq dövlət siyasətini müəyyənləşdirir. Serj Sarkisyanın rəhbəri olduğu Ermənistan Respublikaçılar Partiyasının üzvləri isə Njdeni özlərinin lideri, ideoloqu sayırlar.

Ermənilər bu faşist, eyni zamanda, özlərinin məşhur tarixi şəxsiyyətlərindən biri hesab edirlər. Onun yaratdığı təlimin məqsədi Tsexakron ideologiyası çərçivəsində, erməni millətini, ana köklərindən uzaqlaşmaq təhlükəsi qarşısında qalan diasporunu və xüsusilə gəncləri yenidən səfərbər edərək, Türkiyəyə qarşı bir hərəkat meydana gətirmək olub. Q.Njdenin savaş meydanlarında türklərə divan tutması barədə kifayət qədər faktlar ortadadır. Qəddar Andronikdən geri qalmayan bu daşnak ideoloqunun təlimi nə zaman yaratmağa başlaması da maraqlıdır.

1922-ci ildə Təbrizdən Sofiyaya gedən Njde burada türklərin əleyhinə ilk yazılarını dərc etdirib. "Lernhayastanın (Dağlıq Ermənistan) Qəhrəman Müqaviməti", "Gündəliyimdən səhifələr", "Övladların atalarına qarşı mübarizəsi" kitablarında bu təlimin konturlarını müəyyən edən Njde o dövrdə və sonralar daşnaklar tərəfindən buraxılan "Hayastan", "Araks", "Azatamart" kimi müxtəlif jurnal və qəzetlərdə özünün çirkin məqsədli ideologiyasını təbliğ edib.

Bir müddətdən sonra Bolqarıstandan Amerikaya gedərək təlimini yaymaqla məşğul olan Njdenin bu "nəzəriyyə"si ilə ermənilər irqçi Tsexakronu faşizmə yaxınlaşdırıb.

### Njdenin faşizmə doğma münasibəti

Smbat Hovhannisyan "Tsexakronutyun və faşizm" adlı məqaləsində həmin təlimi faşizmlə müqayisə edərkən onun daha irqçi olduğunu önə çəkir. İrqçiliyi təbliğ edən təlimə, təəssüf ki, Ermənistandan kənarda münasibət bildirilməyib. Daha doğrusu, erməni irqçiliyinin kökündə məhz bu təlimin durduğu ört-basdır edilib.

Dünya xalqları bilməlidirlər ki, Ermənistanda bu təlim yalnız ictimai təsirə sahib deyil, dövlət rəhbərliyinin də siyasi xəttini müəyyən edir. Fakt heç zaman özünü təkzib etmir: Ermənistan Respublikaçılar Partiyasının proqramında belə deyilir: "...partiyamıza əsas düşüncə tərzi Qaregin Njdenin təlimi üzərində qurulur..."

Njdenin faşizmə doğma münasibəti ilk növbədə ermənilərin ruslara nifrətinin nümunəsidir. Faşist Almaniyasına satılaraq, casusluq missiyasını "can-başla" yerinə yetirən Njde bununla sovet xalqlarının birliyinə xəyanətini ortaya qoyur. Onun bütün əməllərinin başında duran irqçilik insanlıq əleyhinə olmaqdır.

Njdenin türklərə nifrətinin nəyə əsaslanması da maraqlıdır. Görəsən, onda türklərə bu qədər nifrət haradandır?

Bir az da yaxından tanıyaq: Qaregin Njdenin 20 yanvar 1866-cı ildə anadan olduğu bildirilir. 1902-ci ildə Peterburq Universitetinin Hüquq fakültəsinə daxil olsa da, o, iki ildən sonra təhsilini yarımçıq qoyub erməni millətçilərinə qoşulub. Sonra İrana köçərək daşnakların orada təşkil etdiyi hərbi məktəbdə təhsil alıb. Sofiyadakı zabit məktəbini də bitirib. Bundan sonra Murad Sebastatsinin başçılıq etdiyi erməni silahlı dəstələrindən birinə girib. O, burada "Daşnaksütyun" partiyasına yazılıb və Njde ləqəbini alıb.

1909-cu ildə silah almaq məqsədilə Rusiyaya gələn Njde burada həbs olunub. 1912-ci ildə həbsdən azad olunan daşnak Bolqarıstana qayıdıb. Balkan müharibəsində Osmanlı İmperiyasına qarşı döyüşüb, 272 nəfərlik könüllü erməni dəstəsinə başçılıq edib. Birinci Dünya müharibəsi başlayanda Rusiya İmperiyasının Sofiyadakı səfirliyinə gələn Qaregin Njde öz xidmətlərini təklif edib. Drastamat Kananyanın (Dro) başçılıq etdiyi erməni könüllü dəstəsinin komandir müavini təyin olunub. Daşnakların Türkiyəyə qarşı vuruşan dəstələrindən birinə rəhbərlik edən Njde Ermənistanın ordu quruculuğu ilə də məşğul olub. 1919-cu ilin sentyabrında daşnak hökuməti tərəfindən Zəngəzura göndərilib. Vəzifəsi bu əraziləri azərbaycanlılardan təmizləmək olub. Njdenin rəhbərlik etdiyi silahlı dəstələr burada yaşayan azərbaycanlı əhalini kütləvi qətlə yetirib. Njdenin bilavasitə rəhbərliyi və göstərişi ilə azərbayacanlılar yaşayan kəndlər yandırılıb, əhalisi qətlə yetirilib və ya öz evlərindən qovulub.

Onun belə vəhşi əməlləri və törətdiyi amansız terrorlar silsiləsi müxtəlif tarixi mənbələrdə öz əksini tapmışdır. Njde, həmçinin Vedibasarda və Göyçə mahalında da azərbaycanlı əhaliyə qarşı qırğınlar törədib. Onun dəstələri 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının ordusu ilə döyüşlərdə iştirak edib. Ən gərgin döyüşlər 1920-ci ilin mart ayında gedib. Azərbaycan sovetlər tərəfindən işğal edildikdən sonra Njde sovet ordusunun hərbi birləşmələri ilə də döyüşlər aparıb. 1920-ci ilin sentyabrında sovet ordu hissələri Qafanı tutanda Njde öz dəstəsi ilə Meğri tərəfə çəkilib. Həmin ilin qışında o, Zəngəzurdakı digər erməni dəstələri ilə birgə sovet ordusunu bu ərazidən sıxışdıraraq çıxarıb.

Tarixin qaranlıq səhifələrinə işıq salındıqca erməni daşnak ideoloqlarının vəhşi və satqın obrazları ortaya çıxır. Həmin həqiqətlər, hətta, erməni mənbələrində də az deyil. Tarixi faktlardan biri də budur ki, 25 dekabr 1920-ci ildə Njde öz silahdaşları ilə Zəngəzurda "Dağlıq Erməni Respublikası"nın yaradıldığını elan edib. 1921-ci ilin fevralında Ermənistanda kommunistlərə qarşı yönəlmiş üsyana görə sovet ordusunun əsas qüvvələrinin İrəvan üzərinə göndərilməsinə ciddi ehtiyac duyulub. Məhz bundan istifadə edən daşnakların yaratdığı ayrı-ayrı silahlı erməni dəstələri Qarabağ və Naxçıvanda yaşayan azərbaycanlı əhaliyə qarşı kütləvi qətllər törədib.

Q.Njde, hətta, özünü yaratdığı oyuncaq respublikanın "ali baş komandanı" da elan edib. Lakin iyulun ilk günlərində hücuma keçən sovet qoşunları erməni quldur dəstələrini darmadağın edib. Bundan qorxan Njde İrana qaçıb.

...1955-ci ildə Rusiyanın Vladimir şəhərindəki həbsxanada casus kimi yatan və elə orada da ölən faşist Q.Njdeni ermənilər nədən özlərinin milli qəhrəmanı, "Sünikin (Zəngəzurun) xilaskarı" sayırlar? Bu maraqlı yox, əslində, müəmmalıdır...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Nəmirli, Şuraabad, Tağıbəyli, Mərzili, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

## Dünya olduğu kimi

# Dövlət içində dövlət

**Katolik dünyasının mərkəzi... Dövlət içində dövlət... Ərazisinə və əhalisinin sayına görə dünyanın ən kiçik, eyni zamanda müstəqil və suveren ölkəsi Vatikan...**



Ölkə İtaliyanın paytaxtı Romanın qərbində Monte-Vatikano adlanan təpə üzərində yerləşir. Ərazisi 44 hektar, əhalisinin sayı isə min nəfərdən çoxdur. 11 fevral 1929-cu ildə Roma Katolik kilsəsi və İtaliya rəhbərliyi arasında Lüteran sazişi əsasında yaradılıb. Lakin Vatikan dövlətinin tarixinin 756-cı ildən başlandığı bildirilir.

Vatikanı açıq səma altında da muzey də adlandırırlar. Bütün şəhər divarlarla əhatə olunub. UNESKO-nun Ümumdünya İrs siyahısında qoruma altında olan ölkə kimi burada yerləşən hər bina tarixi irs kimi qəbul edilir.

Vatikan vətəndaşları iki kateqoriyaya bölünür: Müqəddəs Taxta xidmət edənlər və Papanın şəxsi İsveçrə qvardiyası. Əhalinin əksəriyyəti kilsə xidmətçiləri və hərbçilərdən ibarətdir. Buna görə də vətəndaşların 95 faizi kişidir, qalanları isə İsveçrə qvardiyasının həyat yoldaşı və övladlarıdır.

Vatikan vətəndaşlığı Vatikan şəhər-dövləti tərəfindən verilir. Vətəndaşlıq olmadan orada yaşamaq qadağandır. Uşaqlar 18 yaşına çatanda və valideynlərini itirəndə vətəndaşlığını da itirirlər. Burada vətəndaşlıq nəsildən-nəslə keçmir və təqaüdə çıxdıqda geri alınır. Müqəddəs vəzifə xidmətinin başa çatmasından sonra vətəndaşlıq avtomatik olaraq İtaliya vətəndaşlığına dəyişdirilir.

Bir qadın üçün Vatikan sərhədləri daxilində işləmək asan olsa da, burada yaşamaq demək olar ki, mümkün deyil. Bunun üçün bir yol var: İsveçrə qvardiyasının üzvlərindən biri ilə evlənmək... Amma bu məsələ də çətindir, evlənməli olan üzv ya xüsusi icazə almalı, ya da leytenant rütbəsində olmalıdır. Üstəlik qadın da buna görə Vatikandan rəsmi icazə almalıdır. Digər şərt isə odur ki, İsveçrə qvardiyasının üzvləri yalnız universitet məzunu olan xanımlarla evlənə bilərlər.

Vatikan dünyada doğum sayı sıfır olan yeganə dövlətdir, ona görə də ölkədə doğum evi yoxdur.

Vatikan kiçik ərazidə yerləşsə də, özünün dəmiryol xətti, vağzalı, poçt markaları, valyutası, mətbuatı, gerbi, bayrağı, himni, bankı, internet serveri, polisi, hətta həbsxanası da var.

Vatikanın dəmir yolu dünyanın ən qısa dəmir yolu xəttidir - uzunluğu 1 kilometrə çatır. Vatikan ərazilərindən keçən hissəsi isə təxminən 300 metrdir. Əvvəllər Papanın səyahətləri üçün nəzərdə tutulsa da, sonradan turistlərin də üzünə açılıb. Vatikanda aeroport yoxdur, lakin helikopter meydançası var.

Məşhur Vatikan poçtu dünyanın ən yaxşılarından biri kimi qəbul olunur. Çox sürətli işlədiyinə görə, bir çox italiyalı öz məktublarını buradan göndərir. Vatikandan təxminən 2,5 milyon məktub, 7 milyon teleqram və təxminən 20 min bağlama göndərilir.

Vatikan kitabxanası isə malik olduğu əlyazma sayına görə dünyanın ən böyük kitabxanalarından biridir. Apostol kitabxanasında 1 milyondan çox kitab var. Bu kitabxana XV əsrdə Papa IV Sixtus tərəfindən qurulub. Hazırda təxminən 1,6 milyon nəşr olunmuş kitab, 150 min əlyazma, 8300 incunabula (XV əsrin sonundan əvvəl nəşr olunmuş ilk kitablar), 100 mindən çox qravür və xəritə, 300 min sikkə və medal var. Kitabxana hər il 6000 yeni kitabla yenilənir.

Bu cırtdan dövlətin milli dili olmasa da, dünyanın 32 dilində verilişlər yayımlayan radiostansiyası var. Ölkədə informasiya agentliyi və xüsusi teleproqramlar hazırlayan mərkəz mövcuddur. Vatikan dünyanın müxtəlif ölkələrində 100-dən artıq qəzet və jurnal çap etdirir.

Vatikanda 1603-cü ildə yaradılmış Papa Elmlər Akademiyası fəaliyyət göstərir. Birbaşa Papaya tabe olan bu elm ocağı fizika, riyaziyyat və təbiət elmləri sahəsində aparılan tədqiqatlara öz vəsaiti ilə kömək göstərir. Riyaziyyat və təbiət elmləri sahəsində böyük elmi-təcrübi nailiyyətlər əldə etmiş mütəxəssislər Papa tərəfindən Papa akademiki kimi şərəfli ada layiq görülür. Hazırda dünyanın 20 ölkəsindən 70 alim Papa akademiki adını daşıyır.

Vatikanda bircə yanacaqdoldurma stansiyası var. Burada benzin olduqca ucuzdur. Bu stansiyadan yalnız yerli sakinlər istifadə edə bilər.

Ölkədə kənd təsərrüfatı mövcud deyil. Əsas gəlir mənbəyi bütün dünyadan olan katoliklərin ianələri, turizm və suvenirlərin satışıdır. İllik büdcə təqribən 310 milyon dollar olaraq qiymətləndirilir. Vatikan dünyanın ən böyük maliyyə mərkəzi, səhm (qiymətli kağız) və kapital sahibidir. Ölkədə olan səhmlərin və başqa qiymətli əşyaların, o cümlədən qızıl ehtiyatının dəyəri 13 milyard ABŞ dollarından artıqdır. Vatikan, eyni zamanda, İtaliya, İspaniya, Almaniya, Latın Amerikasının əksər ölkələrində iri torpaq, mülk sahibkarıdır.

Turistlərin əksəriyyəti Vatikana Siksistin Kapellasını görmək üçün gəlir. Kapellada foto çəkmək qəti şəkildə qadağandır və turistlərə yalnız pıçıltı ilə danışmağa icazə verilir. Kimliyindən, vəzifəsindən asılı olmayaraq bura girən hər bir şəxsin üstü yoxlanılır. Bura gündə təxminən 10 min insan gəlir.

Müqəddəs Pyotr Bazilikası isə dünyanın ən böyük xristian kilsələrindən biridir. Bu, İntibah dönəminin (Renesans) ən böyük binası kimi qəbul edilir. İnşasına XVI əsrin ortalarından başlanılıb, 120 ildən çox davam edib. Kilsənin 60 min nəfərlik tutumu var. Dünyanın ikinci ən böyük katolik bazilikasıdır.

Vatikan müqəddəs taxt-tac tərəfindən idarə olunan mütləq teokratik monarxiyadır. Kardinallar tərəfindən ömürlük müddətə seçilən Roma Papası qanunvericilik, icra və məhkəmə hakimiyyətini öz əlində cəmləşdirib. Orta əsrlərdən bəri Vatikana gələnlər üçün Papanın əlini öpmək ona hörmət və heyranlıq göstəricisidir. Papanın üzüyü kilsə xidmətinin ana simvoludur. Papanın ölümündən və ya vəzifədən çəkilməsindən sonra səltənətinin sonunun bir rəmzi olaraq yox edilir. Yeni seçilən Papa üçün qızıldan yeni üzük hazırlanır.

Müqəddəs taxt dünyanın 174 ölkəsi ilə diplomatik münasibətləri dəstəkləyir, 15 beynəlxalq təşkilatın üzvüdür.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

## Bilirsinizmi...



- Günəş sisteminin bütün planetləri Yupiter planetinin içərisinə yerləşə bilər;
- amerikalı Barbara Soperin ailəsində nadir hadisə yaşanıb. Ailənin ilk övladı 08.08.08, ikinci uşaq 09.09.09, sonbeşik isə 10.10.10 tarixində doğulublar. Mütəxəssislərin fikrincə, belə bir vəziyyətin reallaşma nisbəti 50 milyonda birdir;
- insan vücudunda böyüməyən yeganə orqan gözdür;
- qədim Misirdə milçək öldürmək üçün zürafə quyruğundan istifadə edilirdi;
- inəyin 4 mədəsi var;
- hesablamalara görə, yaşa dolmuş kişi ömrünün 3300 saatını yalnız üz qırxmağa sərf edir;
- Keniyanın paytaxtı Nayrobi adını eyniadlı su hövzəsindən götürüb və "soyuq su" mənasını verir;
- Uran planeti Yerdən adi gözlə görünür;
- atlar bir aya qədər ayaq üstə qala bilirlər;
- İkinci Dünya müharibəsində Yaponiya Çinə zəhərli birələr buraxıb.

# İnsanların intellekti fəlakətli dərəcədə azalacaq

**ABŞ-ın Kolorado universitetinin alimləri sübut ediblər ki, atmosferdəki yüksək karbon qazı insanların intellektual qabiliyyətlərinə fəlakətli təsir göstərə bilər.**

Belə ki, tədqiqatçılar artan karbon dioksid səviyyəsinin uşaqların məktəbdə təhsilinə necə təsir etdiyini araşdırıblar. Əvvəlki təcrübələr göstərib ki, qazın yüksək konsentrasiyası həqiqətən zehni qabiliyyətə təsir göstərir.

Bununla birlikdə problem pəncərələri havalandırmaqla asanlıqla həll olunur. Mütəxəssislər iki ssenarini nəzərdən keçiriblər. Birincisi, bəşəriyyət atmosferə atılan istixana qazının miqdarını azaldır, ikincisində tullantılar dəyişməz olaraq qalır. Məlum olub ki, hər iki halda tələbələrin idrak qabiliyyəti azalır.

Alimlərin proqnozlarına görə, ən yaxşı halda, 2100-cü ilə qədər zəkanın azalması 25 faiz, ən pis halda 50 faiz nisbətində olacaq.

# Saturn peykində həyat əlamətləri tapılıb

**NASA-nın alimləri Saturnun Enceladus peyki üzərindəki okeanda həyat üçün lazım olan əsas əlamətləri tapıblar. "Buzlu ay" kimi tanınan və həyat əlamətlərinin olmadığı düşünülən peykdə bu yeni tapıntı elm dünyasını həyəcanlandırıb.**

"Buzlu ay"lar əsasən buzdan ibarət səthləri olan təbii peyklər kimi təsnif edilir. Onların alt hissəsində okean və ya metal qayalar yerləşə bilər.

NASA-nın Cassini kosmik gəmisi 2017-ci ilin sentyabrında Saturn atmosferinə daxil olub. İndiyə qədər burada toplanmış məlumatları qiymətləndirən alimlər Enceladus üzərindəki okeanın dərinliklərində bəzi amin turşuları və yeni növ üzvi birləşmələr tapdıqlarını bildiriblər.

Azot və oksigen ehtiva edən birləşmələr "Buzlu ay"ın okean qatında həyat əlamətlərinin ola biləcəyinə dair işarədir.

## Təbiətin dostları:

# "Qaçdım sənin dalınca mən..."



**Həyata bir tırtıl olaraq başlayıb kəpənək kimi davam edən möhtəşəm naxışlara sahib olanlar yazın canlı çiçəkləri hesab edilir. Planetimizdə təqribən 200 min kəpənək növü yaşayır. Bu həşəratların yaşamadıqları yeganə materik Antarktidadır.**

Kəpənəklərin həyatı 4 silsilədən ibarətdir: yumurta, tırtıl, barama və kəpənək. İstənilən yerdə tək-tək və ya topa halında yumurta qoyurlar. Kəpənəklərin yumurta qoyma mövsümü cəmi bir neçə gün çəkir. Bununla da bir kəpənək mindən artıq yumurta qoya bilir.

Kəpənəklər müxtəlif həcmdə olurlar. Dünyanın ən kiçik kəpənəyi hesab edilən "göy cırtdan"ın qanadlarının uzunluğu 1,4 sm-ə çatır. Ən böyük kəpənək isə "Attacis aitas" sayılır. Onun qanadlarının açıq halda uzunluğu 30 sm-ə çatır və tez-tez quşlarla səhv salınır.

Kəpənəyin qanadlarının əlvan olmasının səbəbi üzərinin müxtəlif rəngli pulcuqlarla örtülü olmasıdır. Qanadları üzərində yüksək və aşağı tondakı səsləri fərqləndirə bilən qulaqları var. Bunlarla yaxınlıqdakı quşları və digər canlıları hiss edə bilirlər. Qanadlarında olan bu səsqəbuledici orqanlar aşağı tondakı səslərə daha çox həssasdırlar. Məsələn, bir quş hücumuyla qarşı-qarşıya qalmadan quşun qanad çırpmasıyla yaranan aşağı tondakı səsləri hiss edirlər. Kəpənəklər quşun ötməsi ilə yaranan yüksək tondakı səslərdən quşun hələ hücuma keçmədiyini, amma onun diqqətini çəkməmək üçün qanadlarını bağlı saxlayaraq özünü kamuflyaj etməli olduğunu anlaya bilirlər.

Bu balaca və gözəl varlıqlar saatda 20 km sürətlə uçurlar. Ən dözümlü kəpənək sayılan "Monarx" dayanmadan 1000 kilometr uça bilir.

Ən mürəkkəb orqanları gözləri hesab edilir. Onların gözü 6 min linza adlanan kiçicik hissələrdən ibarətdir.

Kəpənəklər arılardan sonra bitkilərin tozlanmasında iştirak edən ikinci ən çox yayılmış həşəratlardan hesab olunurlar. Əksəriyyəti çiçək şirəsi (nektarı) ilə qidalanır. Kəpənəklərin dadbilmə reseptorları ayaqlarında yerləşir. Onlar gülün üzərinə qonaraq onun dadını hiss edə bilirlər. Çiçəklərin dərinliklərdə olan nektarı sormaq üçün kəpənəklərin bir çoxunda proboscis adlandırılan uzun orqan - dil var. Dildən istifadə etmədikdə onu içəri sarıyırlar. Bu dil uzanmış halda kəpənəyin boyundan 3 dəfə uzun olur.

Heç vaxt yatmayan kəpənəklərin ömrü əsasən 3-4 gün olur. Bəziləri 1-2 aylıq ömrə sahibdir. "Brikton" adlanan kəpənək isə 10 ay yaşayır.

## Sağlıq olsun

# Ağciyərin düşməni - Sətəlcəm

## Həkim məsləhəti

**Soyuq aylarda rast gəlinən xəstəliklərdən biri pnevmoniyadır (sətəlcəm). Pnevmoniya bir və ya hər iki ciyərdə iltihaba səbəb olan alt tənəffüs sistemi infeksiyasıdır. Bakteriyalar, viruslar və göbələklər də daxil olmaqla, müxtəlif orqanizmlər sətəlcəmə səbəb ola bilər.**



Həkim-terapevt Nərminə Abbasova deyir ki, sətəlcəm yüngüldən, həyati təhlükəsi olan səviyyəyə dəyişə bilər. 65 yaşdan yuxarı şəxslər, uşaqlar və körpələr, sağlamlıq problemləri olan və ya immunitet sistemi zəifləmiş insanlar daha ciddi pnevmoniya keçirirlər. Pnevmoniyanın əlamətləri və simptomları infeksiyaya səbəb olan mikrobun növü, yaş və ümumi sağlamlıqdan asılı olaraq yüngül və ağır arasında dəyişir. Yüngül əlamətlər və simptomlar adətən soyuqdəymə və ya qripə bənzər olur, ancaq uzun müddət davam edir.

Pnevmoniyanın əlamətləri və simptomları aşağıdakılardır:

- *nəfəs aldığınız və ya öskürdüyünüz zaman sinədə ağrı;*
- *65 yaş və yuxarı yaşlılarda zehni şüurda dəyişikliklər;*
- *ağciyərdə bəlğəm;*
- *yorğunluq;*
- *qızdırma, tərləmə və titrətmə;*
- *65 yaşdan böyüklər və zəif immun sistemli insanlarda normal bədən temperaturundan aşağı temperatura;*
- *ürəkbulanma, qusma və diarreya;*
- *nəfəsin qısalması.*

Yeni doğulmuşlar və körpələr infeksiya əlamətlərini göstərməyə bilir, ya da onlarda qusma, temperatur, öskürək, narahatlıq və ya yorğunluq, enerjisiz görünmək, nəfəs almada və yeməkdə çətinlik müşahidə oluna bilir. Tənəffüsdə çətinlik, sinədə ağrı, $39^{0}$ C və ya daha yüksək davamlı olan qızdırma, ya da davamlı öskürək, xüsusən də bəlğəmli öskürəkdən əziyyət çəkildiyi halda həkimə müraciət edilməlidir. Həmçinin 65 yaşdan yuxarı böyüklər, 2 yaşdan kiçik uşaqlar xəstəliyin əlamətləri və simptomları ilə, sağlamlıq səviyyəsi aşağı və ya zəifləmiş immun sistemi olan insanlar, kimyəvi müalicə alan və ya immunitet sistemini zəifləndən dərman qəbul edən insanlar da dərhal həkimə müraciət etməlidirlər. Bəzi ürək çatışmazlığı olan və ya xroniki ağciyər problemləri olan yaşlı insanlar üçün sətəlcəm tez bir zamanda həyati təhlükə doğurur və hətta ölümlə nəticələnir.

### Siqaret ağciyərin müdafiə qüvvəsini zəiflədir

Soyuqdəymə və qripə səbəb olan bəzi virusların da sətəlcəmə rəvac verməsini mümkün sayan həkim N.Abbasova vurğulayır ki, 5 yaşdan kiçik uşaqlarda pnevmoniyanın ən çox yayılmış səbəbi viruslardır: "Viral pnevmoniya adətən mülayim təbiətlidir. Ancaq bəzən bu, çox ciddi hal da ola bilər. Bəzi növ pnevmoniya və qripin qarşısını almaq üçün peyvəndlər mövcuddur. Peyvənd olunmaqla bağlı həkimlə məsləhətləşmək mütləqdir. Vaksinasiyalar zamanla dəyişə bilir, buna görə də, daha əvvəl pnevmoniya peyvəndi almıs olsanız belə, peyvəndinizi həkiminizlə yenidən nəzərdən keçirin. Uşaqların vaksinasiyasından əmin olun. Həkimlər 2 yaşdan kiçik uşaqlar üçün başqa bir pnevmoniya peyvəndi, pnevmokok xəstəliyi riski olan 2 ilə 5 yaş arası uşaqlar üçün isə başqa birini məsləhət görürlər. Uşaqlara xidmət göstərən müəssisələrə gedən uşaqlar da peyvənd olunmalıdırlar. Həmçinin 6 aydan yuxarı olan uşaqlar üçün qrip vaksinini də təklif edirik".

Həkim-terapevt qeyd edir ki, pnevmoniyaya yol aça bilən, tənəffüs yollarına düşən orqanizmlərə qarşı qorunmaq üçün əlləri müntəzəm yumaq və ya spirtli əl dezinfeksiyaedici məhsullarından istifadə etmək lazımdır: "Qətiyyən siqaret çəkmək olmaz. Siqaret tənəffüs yolu infeksiyalarına qarşı ağciyərlərin müdafiə qüvvəsini zəiflədir. İmmunitet sistemini güclü saxlamaq lazımdır. Kifayət qədər gündəlik yuxu normasını yatmalı, sağlam qidalanmalı, davamlı şəkildə hərəkət edilməlidir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bilirik?

- Beyin bədənin cəmi 2 faizini təşkil edir. Lakin o bədən enerjisinin 17 faizini, oksigen və qanın 20 faizini işlədir;
- dünyada nadir rast gəlinən xəstəlikdən biri "pupula duplex" - dir. Belə xəstələrin gözündə iki bəbəyi olur;
- bakteriyaların çoxu ziyansızdır, əksəriyyəti isə bizə lazımdır. Onlar insanın bağırsağında B2 və R vitaminlərini istehsal edirlər. Bakteriyaların köməyi ilə şərab, pivə, turş süd məhsulları, xəmir və s. hazırlayırlar. Bakteriyalar çirkab sularını təmizləyir. Neftin, qazın və sellülozun təmizlənməsində də onlardan istifadə olunur;
- otuz yaşdan başlayaraq insanın əsas beyin ölçüləri azalır. Kişilərin beyninin çəkisi 20-29 yaşlarında, qadınlarda isə 15-19 yaşlarında maksimal ağırlıqda olur;
- bir sözü tələffüz etmək üçün 72 əzələ hərəkət edir;
- qripə səbəb olan 100 virus mövcuddur.

## Sağlam qida

# Balıq alarkən bunlara diqqət edin



**Balıq alarkən aşağıdakılara diqqət etmək vacibdir:**

- Təzə balığın dərisinin səthi təmiz, sərt və parlaq, az miqdarda şəffaf selik ilə örtülür, pulcuqları hamar və parlaq, dərisi ətinə möhkəm yapışmış olur, quyruğu sallanmır. Köhnə balıq əti isə yumşaq təbəqəyə malik olur;

- təzə balığa barmaqla əl vurduqda ət əvvəlki vəziyyətini yenidən alır, köhnə balıqda isə barmaq izi qalır. Bu, balığın təzəliyini yoxlamaq üçün ən asan yoldur;

- balığın gözlərindən də ətin təzə olmasını ayırd etmək mümkündür. Təzə balığın gözü aydın, şəffaf, dolu və göz bəbəyi parlaq, köhnə balığın gözləri çökük olur;

- təzə balığın qəlsəməsi tünd-qırmızıya, köhnə balıqda boz rəngə çalır. Əzələsi bərk, elastik olub, sümükdən çətinliklə ayrılır;

- yoxlamaq üçün əlinizi balığın üzərində gəzdirin, pulları tökülmürsə, təzədir;

- təzə balıqların orqanları dağılmamış, əzələləri möhkəm və gərgin, köhnə balıqların orqanları isə bulanıq rəngdə və asanlıqla bir-birindən ayrıla bilən vəziyyətdə olur;

Bişmiş balıq tez bir zamanda istehlak edilməlidir. Ona görə çalışın ki, balığı istehlak edə biləcəyiniz miqdarda bişirəsiniz. Artıq qalan balıq isə bişirilmədən dondurulma, duzlama, konserva və qurutma üsulları ilə saxlanıla bilər.

## Düzgün yaşam

# Beyni məhv edən vərdişlər

**Beyin insan orqanizminin ən vacib orqanıdır. Amma təəssüf ki, insanın bəzi təhlükəli vərdişləri onu yavaş-yavaş məhv edir.**



**Səhər yeməyindən imtina:**

- Səhər yeməyi yeməyənlərin qanında qlükozanın səviyyəsi aşağı olur. Bu da beynin aktivliyini azaldır.

**Normadan artıq qidalanma:**

- Bədəndə xolesterinin miqdarı çox olur. Bu da beynin fəaliyyətini ləngidir.

**Siqaret çəkmə:**

- Siqaret çəkən insanların beyin hüceyrələri ölür. Bu da birbaşa beynin fəaliyyətinə təsir edir.

**Həddən artıq şəkər qəbulu:**

- Nə qədər çox şəkər qəbul etsəniz, bir o qədər də zəhərli maddələrdən və artıq çəkidən əziyyət çəkəcəksiniz.

**Çirkli hava:**

- Bu amil sizdən asılı olmasa da, bilin ki, oksigen çatışmazlığı beyin fəaliyyətini zəiflədəcək.

**Yuxusuzluq:**

- Əgər yuxu rejiminə riayət etmirsinizsə, bu, yaxşı hal deyil. Beyin hüceyrələrini öldürən ikinci amil yuxusuzluqdur.

**Narkotik və spirtli içkilər:**

- Bu kimi maddələr beynin fəaliyyətini məhv edir.

**Xəstə ola-ola işləmək:**

- İnsan xəstələnəndə zehni əməklə məşğul olursa, bu, beynə mənfi təsir edir. Çünki xəstəlik zamanı orqanizm bütün resurslarını məhz xəstəliklə mübarizəyə yönəldir, beyin lazımi qədər oksigen ala bilmir.

**Stimul və inkişafın çatışmazlığı:**

- Beynə daim inkişaf lazımdır. Uzun müddət televizora baxmaq əvəzinə kitab oxumaq, krossvord həll etmək və ya şahmat oynamaq daha faydalıdır.

**Danışmamaq:**

- Danışmaq da beynə birbaşa stimul verən vasitədir.

## Xalq təbabəti

# Böyrəkləri qoruyan çay

**Qarğıdalı faydalı bitkidir. Onun saçaqlarından da müalicəvi və profilaktik çay hazırlamaq olar. Bu səbəbdən qarğıdalı alanda saçaqlarını atmayıb istifadə edin.**



- Böyrəkləri, sidik yollarını, sidik kisəsini təmizləyir, iltihabı azaldır.

- Qanda şəkərin səviyyəsini aşağı salır.

- Arterial təzyiqin tənzimlənməsinə kömək edir, ödemləri azaldır.

- Qaraciyərin fəaliyyətini yaxşılaşdırır, ödqovucu təsirə malikdir, öd kisəsində durğunluq proseslərini azaldır.

- Mübadilə proseslərini yaxşılaşdırır, iştahanı azaldır, arıqlamağa kömək edir.

- Sinir sisteminin fəaliyyətinə müsbət təsir edir, sakitləşdirir.

- Onkoloji xəstəliklərin inkişaf riskini azaldır.

**Hazırlanması:**

Çayı hazırlamaq üçün 1 çay qaşığı xırdalanmış qarğıdalı saçaqlarının üzərinə 200 ml isti su tökülür, 30 dəqiqə ərzində dəmlənir. Sonra çayı süzüb gün ərzində 2 dəfə yarım stəkan olmaqla adi çay kimi içmək lazımdır. Dadını yaxşılaşdırmaq üçün çaya bal və limon da əlavə etmək olar.

## Şəfalı bitkilər

# Xərçəngin inkişafını dayandıran möcüzəvi bitki

Çili bibərinin tərkibində olan kapsaitsin maddəsi ağciyər xərçənginin inkişafını ləngidə bilər. ABŞ-ın Marşall Tibb Universitetinin alimləri apardıqları araşdırmalar nəticəsində bu qənaətə gəliblər. Bildirilir ki, kapsaitsin alkoloidinin effektivliyi genetikası modifikasiya edilmiş xərçəng daşıyıcıları olan siçanlar üzərində aparılan təcrübələr zamanı sübut olunub. Kapsaitsin maddəsi xərçəngə yoluxmuş hüceyrələrdə metastaz prosesinin birinci mərhələdə inkişafını dondurub. Bu maddə insanda ağciyər xərçəngində də eyni effekti göstərib.

İndi alimlər kapsaitsin maddəsinin zərər vermədən orqanizmə yeridilməsi yolları üzərində düşünürlər. Belə ki, adıçəkilən maddə orqanizmdə mədə sancılarına səbəb olur, mədə-bağırsağın selikli qişasına ciddi zərər vurur.

Mütəxəssislərin fikrincə, tezliklə kapsaitsindən xərçəng xəstəliyinin müxtəlif növlərinin müalicəsində istifadə etmək mümkün olacaq.

# "Bu günümün qüdrəti, şanım, şöhrətim BAKI"




Foto A.MƏMMƏDOVUNDUR

# Koronavirusun qənimi təmizlikdir!

## Hamı indi ondan danışır, bəs mütəxəssislər nə düşünür?



"Korona" virusu! Bu gün dünyada az qala hər kəsi düşündürən bu bəlanın nədən yaranması, yaxud yaradılması və qarşısının alınmasının mümkünlüyü barədə bir-birini bəzən təsdiq, bəzən isə təkzib edən məlumatlar da virusun özü kimi sürətlə yayılmaqda, insanları haqlı olaraq ciddi təlaşa salmaqdadır. Bu məsələdən başı çıxan da danışır, çıxmayan da. Əlbəttə, bu, ilk baxışda əhalinin ayıq-sayıq olması baxımından təbiidir.






Məsələ ilə bağlı respublika Səhiyyə Nazirliyinin və əlaqədar qurumların vəziyyətin nəzarət altında saxlanılması haqqında məlumatları insanlarda virus xofunu bir qədər azaltsa da, lazımi tədbirlər görülməlidir.

Bəs mütəxəssislər nə düşünür görəsən? "Regionda hansısa virus təhlükəsi varsa, Azərbaycan da istisna deyil. Bu baxımdan Çində tüğyan edən "Korona" virusunun Azərbaycanda yayılma təhlükəsi varmı" sualına Azərbaycan Tibb Universitetinin dosenti, respublikanın baş infeksionisti Cəlal İsayevin cavabından anlamaq olur ki, Çinlə digər ölkələrin iqtisadi əlaqələri fonunda təhlükə riski mövcuddur: "Bizim Çinlə gediş-gəlişimiz çox olur, həm turistik, həm də ticarət məqsədilə. Əgər kimsə Çinə gedib xəstələrlə təmasda olarsa, yoluxa bilər. Amma xəstələrlə təmas da hər zaman yoluxmaya səbəb olmur. Bunun üçün sıx təmas lazımdır..."

Həkim virus təhlükəsi səbəbindən Çinlə iqtisadi əlaqələrə müvəqqəti məhdudiyyət qoyulmasının da tərəfdarı deyil. Deyir ki, dünya bir-biri ilə əlaqədədir. Buna görə də sadəcə şəxsi gigiyena qaydalarına riayət edilməlidir. İnsanların qəbul etdiyi qidaların texniki işlənməsinə nəzarət olmalıdır. Təmizlik mütləqdir, əllər tez-tez yuyulmalıdır. Çünki bu viruslar dezinfeksiyaedicilərə qarşı çox həssasdır.

"Korona" virusu iki yolla yoluxur: hava-damcı və fekal-oral mexanizmi, yəni ərzaq məhsulları, əl-ayağımızın toxunması ilə. Hava-damcı yolu ilə yoluxanda tənəffüs yolları xəsətəliklərinə, xüsusilə ağciyər çatışmazlığına səbəb olur ki, bu da ölümlə nəticələnir.

### "Korona" virusunun 37 növü var

Cəlal İsayevin "virusun əlacı yoxdur" kimi fikirlərə münasibəti belədir: "... Bu virusa yoluxan hamı ölmür. "Korona" virusunun 37 növü var. Onun bir çox növü yüngül xəstəliklər törədir. Dünyada kəskin respirator virusların 4-9 faizi onun payına düşür. İndi böyük ajiotaj yaradan virusu "2019-cu ilin Korona virusu" adlandırıblar. Bu virusun ağır gedişlə müşahidə edildiyi bildirilir, amma mən belə xəstə görməmişəm. Hazırda ölüm faizinin aşağı olmasına görə onu ciddi ölümcül virus kimi qəbul etmək düzgün deyil. Yadınızdadırsa, "Sars" virusu vardı, həm də "Korona"dan çox təhlükəli idi. "Sars" virusunun qarşısı alındı. Çox güman ki, "Korona"nın da qarşısı alınacaq. Sadəcə, o regiona gedən insanlar gigiyenik qaydalara əməl etməli, Çinə giriş-çıxışda diqqətli olmalıdırlar".

Bu fikirlər, təbii ki, xeyli əvvəl səsləndirilib. Çünki indi vəziyyət tamamilə fərqlidir. "Korona" dünyaya meydan oxuyur. Çinlə əlaqə, demək olar ki, müvəqqəti də olsa, kəsilir. Orada yaşayan əcnəbilərin öz ölkələrinə qayıtması üçün vasitə və yollar axtarılır.

Baş infeksionist zaman-zaman bu cür virusların xüsusi hazırlanaraq yayılması fikirləri ilə də razı deyil: "Belə şey ola bilməz. Bu virus mövcuddur. 1965-ci ildə kəşf olunan virusdur. 2012-ci ildə "Korona" viruslara aid daha bir növ aşkar olundu. O, "Yaxın Şərq respirator sindromu ilə xəstəlik törədən" adlanır. Bu virus çox ağır gedişə malikdir. Hətta ölüm faizi 35 faizədək proqnozlaşdırılmışdı. Amma indiki "Korona" virusu ilə yoluxmada hələlik ölüm faizi aşağıdır, hesab edirəm ki, tez bir zamanda bu virus da lokollaşdırılacaq".

Maraqlıdır ki, haqqında söz açılan bu bəla xeyli müddət öncə dünyada yayılma təhlükəsi yaradıb. Hələ ötən il oktyabrın 23-də informasiya agentlikləri qonşu İranda 5 nəfərdə "Korona" virusun aşkarlanması haqqında məlumat yayıb. İranın Səhiyyə naziri Həsən Qazizadə Haşimi İRNA agentliyinə bildirib ki, həmin şəxslər Səudiyyə Ərəbistanında Həcc ziyarətində olublar. Vətənə döndükdən sonra onlarda bu virus aşkarlanıb: "Beş nəfərdə ölkəyə qayıdarkən hava limanında virus aşkarlanıb. "Korona" virusu Səhiyyə Nazirliyinin gündəliyindədir. Ebola və "Korona" ilə bağlı ölkədə narahatçılığa əsas yoxdur".

### "Korona" "Sars" virusunun qohumudur

Mütəxəssislərin fikrincə, koronavirusa insanlar və heyvanlar tənəffüs yolları ilə yoluxurlar. 55 il əvvəl aşkar olunan virus həzm sisteminə də təsir edir. Virusun bir çox fərqli növü var. Lakin virusa qarşı qoruyucu peyvəndlər mövcud deyil.

"Korona" virusu ilə bağlı xəbərlər dünyada durmadan artmaqdadır. "Sars" virusunun qohumu adlandırılan bu virus ilk olaraq Çində ortaya çıxıb. O, ötən ilin dekabrından indiyə kimi yüzlərlə insan həyatını məhv edib. Onun quruluşunu tədqiq edən elm xadimi Leo Poon bu virusun bir heyvanda yarandığını və insanlara yayıldığını təxmin etdiyini söyləyib.

Bu virus haqqında ən çox verilən sual onun simptomlarının nə olması ilə əlaqədardır. Virus haqqında danışan Leo Poon bildirib ki, "Korona" virusu pnevmoniyaya səbəb olur. Daha sonra bir çox yeni virus kimi antibiotik müalicəsinə cavab vermir. O, heyvanlar arasında geniş yayılmış böyük bir viruslar qrupudur.

ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin məlumatlnda isə bildirilir ki, nadir hallarda alimlərin zoonotik adlandırdıqları hadisə baş verə bilər. Belə ki, virus heyvanlardan insanlara ötürülə bilər.

Ümumdünya Səhiyyə Təşkilatı bu xəstələrin nə cür izləniləcəyi, onlarla necə davranılacağı və səyahət edəcəkləri ölkələrə hansı hazırlıqla gedə biləcəkləri haqqında məqalə hazırlayıb.

Simptomları ümumən soyuqdəyməyə bənzər şəkildə, xəfif, yaxud orta dərəcədə xroniki yuxarı tənəffüs xəstəliyi olan insanları daha tez təsiri altına sala bilir. "Korona"nın simptomları arasında burun axması, öskürək, boğaz, baş ağrısı və bir neçə gün davam edən qızdırma var. İmmunitet sistemi zəif olan yaşlılar və uşaqlarda virus pnevmoniya və ya bronxit kimi daha ciddi tənəffüs xəstəliyinə çevrilmək imkanına malikdir.

### Əllərinizi tez-tez sabunla 20 saniyə yuyun ki...

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, "korona" tənəffüs problemlərinə, ishal, yorğunluq, nəfəs darlığı, tənəffüs çətinliyi və böyrək çatışmazlığına da səbəb ola bilər. Xəstənin yaşından asılı olaraq, "Sars" ilə ölüm nisbəti 0-50 faiz arasında dəyişir. Yaşlılar isə ən həssas xəstələrdir.

Haqlı olaraq sual olunur: bəs bu virusa yoluxmanın müalicəsi varmı? Təəssüf ki, "korona" virusu üçün xüsusi bir müalicə yoxdur. Çox vaxt simptomlar öz-özünə yox olur. Həkim resepti ilə alınan ağrıkəsicilər və ya antipiretik dərmanlar simptomları rahatlaşdıra bilər. ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzi bildirib ki, isti duş boğaz ağrısı və ya öskürək üçün yaxşı təsir edə bilər. Bol maye içmək, mümkün qədər dincəlmək və yatmaq lazımdır. Əgər simptomlar standart bir soyuqdəymədən daha pis görünürsə, həkimlə məsləhətləşin.

Bəs necə qorunmalı? Bu həm əhalini, həm də həkimləri düşündürən və cavab axtaran sualdır. Bu virusdan qorunmaq üçün heç bir peyvənd yoxdur. Xəstələnən insanlardan uzaq durmaqla yoluxmanın qarşısını almaq olar. Göz, burun və ağzınıza toxunmaqdan çəkinin. Əllərinizi tez-tez sabunla ən azı 20 saniyə yuyun. Xəstə olsanız, insan kütləsi çox olan yerlərə getməyib yaxın təmasdan qaçın. Öskürərkən və ya asqırarkən ağız-burnunuzu örtün və toxunduğunuz əşyaları, səthləri dezinfeksiya edin.

Bu bəladan qorunmaq üçün müxtəlif vasitələr var ki, onlardan biri, bəlkə də ən əsası KİV-də, eləcə də elm, təhsil və mədəniyyət müəssisələrində təbliğatı gücləndirmək, əhalini maarifləndirməkdir. Artıq bu istiqamətdə mədəni-maarif müəssisələri işə keçib: "Könüllülər ili" çərçivəsində kitabxanaçılar "korona" virusu ilə bağlı yaddaş vərəqələri hazırlayıblar. Bakı şəhəri Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının əməkdaşları bu istiqamətdə deyəsən birincidirlər. Mərkəzi Kitabxanada "korona" virusu ilə bağlı yaddaş vərəqələri hazırlanıb. Orada xəstəliyin simptomları, virusun müalicəsi haqqında qısa məlumat verilir.

Hazırlanan vərəqələrin kitabxanaçılar, könüllülər, MKS-ə daxil olan kitabxanaların fəal oxucuları tərəfindən evlərə, habelə ictimai yerlərə paylanması təşkil olunub.

### "Korona" metroda, avtobusda, küçədə, bazarda da ola bilər

Əhalinin daha çox kütləvi şəkildə istifadə etdiyi ictimai nəqliyyat növlərindən biri də metrodur. Virusun yayılma ehtimalı daha çox belə kütləvi və ictimai yerlər olduğu bildirilir. Ona görə də əhalini düşündürən suallardan biri də budur: "Görəsən Bakı metrosu "korona" virusuna qarşı hansı tədbirləri görür?

Bu barədə "Bakı Metropoliteni" QSC-dən bildirilib ki, şəhərdaxili ictimai sərnişindaşıma nəqliyyatının beynəlxalq əlaqələri yoxdur. Lakin zərurət yaranacağı təqdirdə virusla əlaqədar səlahiyyətli qurumların təlimat göstərişlərinə uyğun olaraq, bütün müvafiq tədbirlərin görülməsi, profilaktik işlərin həyata keçirilməsi istisna edilmir. Eyni zamanda qeyd olunub ki, "Bakı Metropoliteni" QSC-də mövcud vəziyyətin nəzarət altında saxlanılması, işçi personalının maarifləndirilməsi ilə bağlı aidiyyəti strukturlara müvafiq tapşırıqlar verilib. "Bakı Metropoliteni"ndə sanitar-gigiyenik normaların tələblərinə əməl olunmasına xüsusi diqqət yetirilir. Paytaxtın ən mühüm ictimai sərnişindaşıma nəqliyyatı növlərindən biri kimi əsasən yeraltı tunellərdən ibarət olması nəzərə alınaraq, burada sanitar-gigiyenik normaların tələblərinə uyğun planlaşdırılmış dezinfeksiya işlərinin və digər müvafiq tədbirlərin aparılmasına da ciddi riayət olunur.

### Kolumbiyada yeni virus?..

"Korona" epidemiyasından xilas olmamış Kolumbiyada yeni virus tapılıb. Məlumatlara görə, yanvarın 23-dən indiyə kimi 6 uşağın öldüyü, ümumiyyətlə isə 60-dan çox insanın xəstələndiyi virusun yaranma səbəbi bilinmir.

Kolumbiyanın Səhiyyə Nazirliyindən virusun ölkənin şimal-qərbində yerləşən Çok əyalətində yayıldığı açıqlanıb və Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə virusun yayılmamasına nəzarəti artırdıqları bildirilib. Kolumbiya Xalq Hakimiyyətləri Şurasının nümyəndəsi Orlando Moya bildirib ki, virus 10 yaşdan kiçik uşaqlarda qızdırma, qusma və ishal yaradır.

Həkimlər xəbərdarlıq edirlər ki, bu ölkələrə səfər edənlər xüsusilə diqqətli olmalı, özlərində halsızlıq hiss etməsələr belə yoxlamadan keçməlidirlər. Ekspertlərin fikrincə, Azərbaycan sərhədində də bu məsələlərlə bağlı yoxlamalar gücləndirilmişdir. Çünki hazırda bir neçə qonşu ölkədə həm də "Donuz qripi" yayılıb.

Son məlumatlara görə, Gürcüstanda iki nəfərin bu virusdan öldüyü bildirilir. İranda isə artıq bu virusdan 120-dək insanın ölməsi ilə bağlı rəsmi məlumat yayılıb. Təcavüzkar Ermənistanda da yanvarın ortalarınadək qrip virusu diaqnozu ilə 700-ə yaxın erməni xəstəxanaya yerləşdirilib, hətta, onlardan ölənlər də var.

Dövlət Gömrük Komitəsinin məlumatları nikbinlik yaratmağa əsas hesab oluna bilər: Azərbaycanda gömrük-sərhəd buraxılış məntəqələrində insan bədəninin hərarəti yoxlanılır. İnsanlar üçün qlobal təhlükə törədən yoluxucu xəstəliklər, xüsusilə son günlər Çində etimologiyalı sətəlcəm xəstəliyinin aşkar edilməsi ilə əlaqədar gömrük-sərhəd buraxılış məntəqələrində gömrük orqanları tərəfindən müvafiq işlər aparılır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Kanada İrandan 1,1 milyard dollarlıq kompensasiya tələb edir

Kanadalı hüquqşünaslar "Ukrayna beynəlxalq hava yolları"nın Tehranda vurulmuş təyyarəsində Kanada vətəndaşlarının ölümünə görə İran hakimiyyət orqanlarına qarşı 1,1 milyard ABŞ dolları məbləğində kompensasiya ödəmək tələbi ilə iddia qaldırmışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Vəkillər bildirmişlər ki, əsas iddiaçının adı açıqlanmır, çünki onun ailəsi İranda təhlükəyə məruz qala bilər. İş üzrə cavabdehlər İranın ali rəhbəri, ayətulla Əli Xamenei, həmçinin İslam İnqilab Qvardiyasının komandirləridir. İddiada təyyarənin raketlə vurulması terror aktı kimi qiymətləndirilmişdir.

Xatırladaq ki, "Ukrayna beynəlxalq hava yolları"nın Boeing 737-800 təyyarəsi yanvarın 8-də səhər Tehran hava limanından havaya qalxarkən yerə çırpılmışdır. 176 sərnişin, o cümlədən Ukraynanın 11 vətəndaşı həlak olmuşdur. İran təyyarənin səhvən vurulduğunu etiraf etmiş və ölənlərin hər birinin ailəsinə 80 min dollar məbləğində kompensasiya təklif etmişdir. Ukrayna Prezidenti Vladimir Zelenski kompensasiyadan imtina etmiş və bildirmişdir ki, beynəlxalq məhkəmə vasitəsilə daha böyük məbləğdə kompensasiyaya nail olmaq niyyətindədir.

## Aİ-də qadınlar kişilərdən az pensiya alırlar

2018-ci ildə Avropa İttifaqı (Aİ) ölkələrində 65 yaşdan yuxarı qadınlar kişilərdən orta hesabla 30 faiz az pensiya alırdılar. Bu barədə Avrostat məlumat vermişdir.

Aİ-nin üzvü olan ölkələrdə qadınlar az pensiya alsalar da, fərq ayrı-ayrı ölkələrdə müxtəlifdir. Ən böyük fərq Lüksemburqda müşahidə olunmuşdur: burada 65 yaşdan yuxarı qadınlar kişilərdən 43 faiz az pensiya almışlar. Lüksemburqun ardınca Malta (42 faiz), Niderland (40 faiz), Avstriya (39 faiz), Kipr (38 faiz) və Almaniya (37 faiz) gəlir. Digər tərəfdən, qadınlarla kişilər arasında pensiya məbləğində ən az fərq Estoniya (1 faiz), Danimarka (7 faiz), Slovakiya (8 faiz), Çexiya (13 faiz) və Macarıstanda (16 faiz) olmuşdur.

2018-ci ildə Aİ-də yaşı 65-dən yuxarı olan və yoxsulluq təhlükəsi ilə üz-üzə qala biləcək pensiyaçıların nisbəti 15 faiz təşkil etmişdir, halbuki həmin göstərici 2017-ci ildə 14 faiz olmuşdur. Pensiyaçılar arasında yoxsulluq riskinin ən yüksək səviyyəsi Estoniya (54 faiz), Latviya (50 faiz), Litva (41 faiz) və Bolqarıstanda (30 faiz) müşahidə edilmişdir. Ən aşağı göstəricilər Slovakiya (6 faiz), Fransa (8 faiz),Yunanıstan (9 faiz), Danimarka, Lüksemburq və Macarıstanda (hər biri 10 faiz) qeydə alınmışdır.

## Vaşinqton Venesuelaya qarşı sanksiyaları genişlətdi

ABŞ Venesuelanın "Conviasa" mülki aviasiya şirkətinə qarşı sanksiyalar tərbiq etmişdir. Bu barədə ABŞ Maliyyə Nazirliyinin Xarici aktivlərə nəzarət idarəsi məlumat vermişdir.

"Qara siyahı"ya həmçinin aviaşirkətin 40 təyyarəsi düşmüşdür. Maliyyə naziri Stiven Mnuçinin bəyanatında deyilir ki, "qeyri-legitim Maduro rejimi Venesuelanın "Conviasa" dövlət aviaşirkətindən rejimin korrupsiyaya uğramış nümayəndələrinin antidemokratik səylərini fəallaşdırmaq məqsədilə bütün dünyada səyahətlərini təşkil etmək üçün yararlanır".

ABŞ Maliyyə Nazirliyi iddia edir ki, sanksiyaların tətbiqi Venesuela sakinlərinin bir yerdən başqa yerə getməsinə mane olmayacaq, çünki onlar sanksiyaya məruz qalmamış aviaşirkətlərin xidmətlərindən istifadə edə biləcək. Nazirlik qeyd etmişdir ki, dövlət aviaşirkətinin və onun təyyarələrinin "qara siyahı"ya daxil edilməsi "Maduro rejiminin həmin şirkətdən sui-istifadə etməsini məhdudlaşdırmaq" məqsədi güdür.

Bir müddət əvvəl ABŞ Maliyyə Nazirliyinin Xarici aktivlərə nəzarət idarəsi yeddi venesuelalı məmura qarşı sanksiyalar tətbiq etmişdir.

## Qazaxıstanda səkkiz nəfər kütləvi davanın qurbanı oldu

Qazaxıstanın Jambul vilayətində təxminən 70 nəfərin iştirakı ilə məişət zəminində kütləvi dava baş vermişdir. Daxili İşlər naziri Erlan Tuqumbayevin verdiyi məlumata görə, 8 nəfər iğtişaşların qurbanı olmuş, 40 nəfərdən çox adam yaralanmışdır.

Polisin məlumatına görə, iğtişaşlar Korday rayonunun kəndlərinin birində baş vermişdir. Kütləvi davanı kameraya çəkib sosial şəbəkəyə qoymuşlar. Hüquq-mühafizə orqanları qeyd edirlər ki, bu, münaqişənin şiddətlənməsinə gətirib çıxarmışdır: hadisə yerinə qonşu yaşayış məntəqələrindən təxminən 300 nəfər gəlmişdir. Odlu silahın tətbiqi ilə toqquşmalar başqa kəndlərdə də başlamışdır.

Tuqumbayevin dediyinə görə, iğtişaşların iştirakçıları polis əməkdaşlarının tələblərini qulaqardına vuraraq onlara müqavimət göstərmişlər.

Daxili İşlər Nazirliyi bildirmişdir ki, Korday rayonunda vəziyyət artıq sabitləşmişdir. İğtişaşların 47 iştirakçısı həbs olunmuşdur.

## Avropa Müdafiə Agentliyinin yeni rəhbərini seçmək mümkün olmur

Avropa İttifaqı (Aİ) üzv ölkələr arasında ixtilaflar ucbatından Avropa Müdafiə Agentliyinin (EDA) yeni direktorunu hələlik seçə bilmir. Bu barədə "Frans Press" agentliyi mənbələrə istinadən xəbər verir.

Agentliyin məlumatına görə, ötən ilin oktyabrında Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ovaxtkı ali nümayəndəsi Federika Mogerini EDA-nın direktoru vəzifəsinə dörd namizəd irəli sürmüş, amma onların heç biri, seçki prosedurunun tələb etdiyi kimi, Aİ-nin üzvü olan ölkələrin yarıdan çoxunun dəstəyini qazanmamışdır.

"Frans Press"in mənbələrindən biri qeyd etmişdir ki, Böyük Britaniya yanvarın 31-də Aİ-dən çıxmazdan qabaq London təyinata mane olmuşdur, indi isə yeni direktor vəzifəsinə namizədin seçilməsində konsensus əldə etmək asan olacaq. Başqa bir mənbə isə Aİ-nin başqa üzvləri, o cümlədən Fransa və Almaniya arasında bu məsələ ilə əlaqədar ixtilafların hələ də davam etdiyini bildirmişdir.

Aİ diplomatiyasının hazırkı başçısı Jozep Borrel iddiaçılardan birini seçib onun namizədliyini təyin olunmaq üçün tövsiyə etməlidir. "Frans Press"in mənbələrinin verdiyi məlumata görə, Borrel qərar qəbul etməkdə tələsmir, çünki EDA-nın direktorunun seçilməsi məsələsi "siyasi nöqteyi-nəzərdən mürəkkəbdir".

EDA-nın əvvəlki rəhbəri Xorxe Domek fevralın 1-də vəzifəsini tərk etmişdir. Hazırda agentliyin direktorunun səlahiyyətlərini onun müavini Olli Ruutu icra edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Həmid Həmidova anası

**XALİSƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6975
Sifariş 396
Qiymәti 40 qəpik